# Azərbaycan xalq mahnıları

## I CİLD

ÖNDƏR NƏŞRİYYAT
BAKI-2005

Tərtib edən: **Siyavuş Kərimi**
*Azərbaycan Respublikasının xalq artisti*

Redaktor: **Elnarə Dadaşova**
*bəstəkar*

**398.2'094754 - dc 21**
**AZE**
**Azərbaycan xalq mahnıları.** I cild. Bakı, "Öndər nəşriyyat", 2005, 168 səh.

Topluya Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin "Azərbaycan türk el nəğmələri" (1927), Səid Rüstəmovun "Azərbaycan xalq melodiyaları" (1937) və Davud Məmmədbəyovun "Azərbaycan lirik xalq mahnıları" (1965) kitablarından götürülmüş xalq mahnıları daxil edilmişdir.

Topludakı mahnılar musiqisevərlərə, musiqi nəzəriyyəçilərinə, bəstəkarlara, xanəndələrə və ümumiyyətlə, Azərbaycan xalqına ünvanlanır.

**ISBN 9952-416-75-9**

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Azərbaycan qədim və zəngin mədəniyyətə malik bir diyardır. Onun zəngin musiqi folkloru vardır. Xalq mahnılarımız musiqi folklorumuzun çox vacib və ifadəli qolunu təşkil edir. Bizim mahnılarımıza nəinki vətənimizdə, hətta uzaq ölkələrdə qiymət verən və rəğbətlə qulaq asanlar vardır. Çünki çoxəsrlik tarixə malik Azərbaycan xalq musiqisi son dərəcə rəngarəngdir. Tarix boyu xalqın məhəbbət bəslədiyi mahnı, aşıq musiqisi, oyun havaları və muğamlar onun məişəti, mədəniyyəti, əməyi ilə bağlı olmuş və xalqın həyatında əvəzsiz rol oynamışdır.

XIX əsrin birinci yarısında Azərbaycan xalqının çoxəsrlik ənənələrinə, musiqisinə olan maraq getdikcə artır. Buna misal olaraq, hələ 1817-ci ildə İ.Dobrovolskinin "Asiya musiqisi" jurnalında çap olunmuş "Dərbəndli Fətəli xanın mahnısı"nı göstərmək olar.

XIX əsrin 40-cı illərində "Koroğlu" dastanına maraq İ.Şopen tərəfindən dastanın ayrı-ayrı qollarının sərbəst tərcüməsinin "Mayak" jurnalında çap olunmasına səbəb olur.

1861-ci ildə "Azərbaycan xalq mahnıları" P.Siyalski tərəfindən "İllüstrasiya" jurnalında "Səkkiz aziat mahnısı və Ləzginka" kimi not nümunələri ilə verilir. Bu nümunələr "Tatar mahnıları" adlandırılır, lakin onlar, məhz Azərbaycan xalq mahnılarıdır. Belə ki, "Qalanın dibində" Azərbaycan xalq mahnısının yeni variantından biri bu jurnalda dərc olunur.

1898-ci ildə A.Koroşeko "Etnoqrafiçeskoye obozreniye" jurnalında "Şərq, xüsusilə Qafqaz üzərində müşahidə" adlı məqaləsində not nümunələri də dərc edir. "Bayatı", "Can gülüm", "Biçinçiyəm" mahnıları 15 not nümunəsi arasında verilir.

XX əsrin əvvəllərində P.Vostrikovun "Azərbaycan tatarlarının musiqisi və mahnısı" məqaləsi işıq üzü görür. Məqalədə Azərbaycan xalq mahnısı barədə ardıcıl məlumat verilir. Lakin qeyd olunmalıdır ki, bütün sadalanan not nümunələri həqiqi səslənmədən fərqli qələmə alınıb.

Nəhayət, Azərbaycan musiqi folkloru Qori seminariyasında təhsil alan azərbaycanlılar Ü.Hacıbəyov və M.Maqomayev tərəfindən toplanmağa başlayır. Onu demək kifayətdir ki, 1900-cü ildə M.Maqomayevin topladığı materiallar Parisdə keçirilmiş ümumdünya sərgisində nümayiş olunmuşdur. Beləliklə də, azərbaycanlılardan ilk dəfə folklor nümunələrini qələmə alan dahi yaradıcı bəstəkar və alimlərimiz Ü.Hacıbəyov və M.Maqomayev olub. Onlar 1927-ci ildə "Azərbaycan türk el nəğmələri" məcmuəsini çap edirlər. Professor Fridolin nəşrin müqəddiməsində qeyd edir: "Bu məcmuə yalnız başlanğıcdır, lakin elə bir başlanğıcdır ki, Azərbaycanın musiqi həyatına yeni şəfəq gətirmişdir".

Azərbaycan xalq musiqisinin nota salınması və nəşr edilməsində növbəti böyük addım 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Elmi Tədqiqat Musiqi Kabineti yaradılması ilə bağlıdır. Burada Bülbülün rəhbərliyi ilə müntəzəm şəkildə folklor nümunələri toplanılır və nəşr edilirdi.

ETMK müxtəlif bölgələrə ekspedisiyalar təşkil edir. O dövrdə bir sıra Azərbaycan bəstəkarları və musiqişünasları həvəslə ekspedisiyalarda iştirak etmişlər. Onlardan A.Zeynallı, Q.Qarayev, F.Əmirov, C.Hacıyev, S.Rüstəmov, T.Quliyev, Z.Bağırov, musiqişünas M.İsmayılov və digərlərinin adlarını çəkmək olar.

Ekspedisiyalar nəticəsində 1937-ci ildə "50 Azərbaycan el mahnıları" məcmuəsini xüsusilə qeyd etmək lazımdır. S.Rüstəmovun not açıqlamaları Bülbülün rəhbərliyi ilə işıq üzü görür.

Sonralar, 1956-1958-ci illərdə iki cilddən ibarət "Azərbaycan xalq mahnıları" məcmuəsi nəşr edilir. S.Rüstəmov, T.Quliyev, F.Əmirov ETMK tərəfindən toplanmış materialları C.Qaryağdıoğlunun ifasından və musiqi həvəskarı A.Əliverdibəyovun poetik mətnlərə açıqlamalar verməsindən bəhrələnərək nəşrə hazırlayırlar.

60-cı illərdən başlayaraq Azərbaycan musiqi folkloruna maraq daha da artır. Belə ki, B.Hüseynlinin "Azərbaycan xalq rəqs melodiyaları" (iki dəftər, 1965, 1966), "Azərbaycan mahnıları və oyun havaları" (1974), Ə.İsazadə və N.Məmmədovun "Xalq mahnıları və rəqs melodiyaları" (1975), hətta "Antologiya" və bir sıra başqa toplular nəşr olunur.

Təqdim olunan “Azərbaycan xalq mahnıları” toplusu müəyyən mənada folklorumuzun bu qolu ilə bağlı nəşrlərin sırasını davam etdirir. Reallıq belədir ki, gənclərimizin el nəğmələrindən xəbərsiz olması, bayağı mahnılara üz tutması danılmaz həqiqətə çevrilib.

Kitaba daxil edilmiş mahnılar öncə işıq üzü görmüş toplulardan seçim yolu ilə, bəzi nümunələrin poetik mətninin tam, dolğun əks olunması ilə musiqi materialının peşəkar xanəndələrin ifası əsasında redaktə olunması şəklində təqdim olunub.

Kitaba Ü.Hacıbəyovun və M.Maqomayevin “Azərbaycan türk el nəğmələri” (1927-ci il), S.Rüstəmovun “Azərbaycan xalq melodiyaları” (1937-ci il) və D.Məmmədbəyovun “Azərbaycan lirik xalq mahnıları” (1937-ci il) toplularından götürülmüş mahnılar daxil olunub.

Tərtibatçılar əmindirlər ki, bu toplu öncə nəşr olunanlar sırasına daxil olmaqla Azərbaycan musiqisində yaranmış zövqsüzlüyün, bəzi xanəndələrimizin repertuarlarının çox məhdud çərçivədə olmasının aradan götürülməsinə kömək edəcək.

Məlumdur ki, Azərbaycan xalq mahnıları janr etibarilə tarixi, lirik, məişət, qəhrəmanlıq, əmək və mərasimlə bağlı nümunələrdən ibarətdir və bu baxımdan mahnı sərvətimizi gələcək nəsillərə çatdırmaq müqəddəs borcumuzdur.

Təqdim olunan topluya daxil edilmiş mahnılar musiqisevərlərə, nəzəriyyəçilərə, bəstəkarlara, xanəndələrə və ümumiyyətlə, bütün Azərbaycan xalqına ünvanlanır.

***Siyavuş Kərimi***
*Azərbaycan Respublikasının xalq artisti*

# 1. NİNNİ




Könlümün bir gülüsən,
O gülün bülbülüsən.
Sinəmin sünbülüsən,
Səni, yavrum[1], sevərəm.

Laylay dedim həmişə,
Karvan gedər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə.

Laylay quzum, ağlama,
Ürəyimi dağlama.
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama.

Laylay dedim yatasan,
Qızılgülə batasan.
Gül yastığın içində
Şirin yuxu tapasan.

Laylay dedim gündə mən,
Kölgədə sən, gündə mən.
İldə bir qurban olar,
Sənə qurban gündə mən.

Laylay, a gəlin bala,
Yuxusu dərin bala.
Tanrıdan əhdim budur,
Toyunu görüm, bala.

Laylay, əməyim bala,
Duzum, çörəyim bala.
Gözlərəm böyüyəsən,
Görüm köməyin, bala.

[1] Mənim əzizim (mənim quşcuğazım)

# 2. BEŞİK BAŞINDA




A quzum, körpə quzum,
Uyu, ey qara gözüm.
Çıxdı afakə[1] sözüm,
Bu nədir ağladığın,
Ürəyim dağladığın.

Evində, eşiyində,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.
Durmuşuq keşiyində.

Oxşasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan,
Bir igid görüm səni. } 2 dəfə

# 3.TÜTÜ NƏNƏM




[1] Boş, faydasız, hədər

Qızıl inək, yiyən mənəm,
Sənə qızıl deyən mənəm.
Tütü nənəm, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm.

Görməmişəm, gözdən olum,
Vurmamışam, əldən olum.
Tütü nənəm, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm.

# 4. İŞ BAŞINA




İş başına, hər tərəfdə
Eşidilsin bütün gün.
Dəzgah səsi, o çalışqan
Bir millətin sədası.

Əldə əyə[1], ya dəstirə[2]
Xışıldayıb yürüsün,
İşçilərin əks eləsin
Göyə fərəh nidası.

---

[1] Yeyə
[2] Mişar

# 5. SƏHƏR-SƏHƏR YAZ ÇAĞI




Səhər, səhər yaz çağı,
Köçür oba yaylağa.
Gəlinlərin balağı
Batır lilə, batlağa.

Qoyun, quzu, at, eşşək,
Salmış çölə qalmaqal.
Dəvə, maya, nər, köşək,
Ləkləyirlər dalbadal.

Arvad, kişi, oğlan, qız,
Gön çarıqlı, başmaqlı,
Gedir qoruq-qaytaqsız,
Gəlin, qızlar yaşmaqlı.

Kişi əlində çomaq,
Sürür yüklü öküzü.
Dəvə üstə bir uşaq,
Çox oxuyur bu sözü:

Ağ dəvə alçaq gedər,
Qolunda qolçaq gedər.
Ağ dəvənin gözləri,
Yerə dəyər dizləri.
Endi çaya yuh-yuh!
Ağca maya yuh-yuh!

# 6. ZƏHMƏTİN İŞIĞI






Zəhmətin işığı
Gözlərdə yandı.
Dumanlı yamaclar
Nura boyandı.
Çiçəklər açıldı
Quşlar oyandı.
Yürü cütçü, yürü cütçü,
Tarlan səni gözləyir,
Yürü cütçü,
Tarlan səni gözləyir.

# 7. ŞƏFƏQ SÖKÜLÜRKƏN






Solo:

Şəfəq sökülürkən xoruzlar banlar,
Sis dumanlı dərə, bayır, ormanlar,
Sürüsünü yayar dağa çobanlar,
Təbiətin zövqünü onlar anlar.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

Solo:

Gözəl olur bu yerlərin səhəri,
Dağ başından doğar altunsaç pəri.[1]
Çəmənlərin qırmızıdon dilbəri,
Şəfəqilə boyar, bəzər hər yeri.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

Solo:

Dünyada vardır sicimi, çatısı,
Patavası,[2] çuxası, həm qartısı.[3]
Bir də qumral gözlü Fatısı,
Oxuduqca ürək deyər bayatısı.

Xor:

Bu yerlərin aslanıdır çobanlar,
Həm izzəti, həm şənidir çobanlar.

[1] Qızılsaç pəri (Günəş)
[2] Sarıq, dolaq (ayaq sarığı)
[3] Yapıncısı

# 8. ÇIXDI GÜNƏŞ




Çıxdı günəş, doldu cahan nur ilə,
Cütçü sürür tarlada cüt şur[1] ilə.

Atlar, öküzlər kotana güc verir,
Gah yürüyür, gah yıxılır, gah durur.

Cütçü batıb qan-tərə yer şumlayır,
Şumladığı tarlasını tumlayır.

Olsa da artıq nə qədər zəhməti,
İşləməyə var o qədər qeyrəti.

Çünki bilir rahat əziyyətdədir,
Şad yaşamaq səydə, qeyrətdədir.

İndi əgərçi ona zəhmət olar,
Qışda əyali[2], özü rahət bular:[3]

Cəm edəcək tarlanın hasilin,
Bəsləyəcək ailəsin, həm elin.

---

[1] Həvəslə, sevinclə
[2] Ailəsi
[3] Tapar

# 9. ÇƏK, ŞUMLA YERİ




Çək!
Şumla yeri, durma daha,
Qaşqa kəlim çək!
Dırmıxlayaraq toxumları,
Mən də səpim, çək!

Çək!
Çək! Başına mən dolanım,
Mən dolanım, çək!
Ölmə, ölmə yazığam,
Kölgəndə dolanım, çək!

# 10. BİÇİNÇİYƏM




Biçinçiyəm, işim-gücüm biçindir.
İşləməyim səadətim üçündür, ay,
Üçündür, ay, üçündür.

# 11. QARABAĞ ŞİKƏSTƏSİ






Deyr ey!..
Qarabağda bağ olmaz,
Qara salxım az olmaz.
Qürbətdə yar sevənin,
Ürəyində yağ olmaz.[1]

Deyr ey!..
Əzizinəm, kim gözlər,
Tarçalan simi gözlər.
Qaşların tək qaş olmaz,
Gözlərin kimi gözlər.

Deyr ey!..
Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Aləm gözələ dönsə,
Yaddan çıxmaz Qarabağ.

---

[1] Belə bir variantda da oxunur:
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Hər kimin qəlbi qandır,
Ürəyində yağ olmaz.

# 12. EL YALLI

**Andante** ♩ = 120




Sağ a-ya-ğın i-rə-li, Sol a-ya-ğın i-rə-li.
Allegro non troppo ♩ = 112
Bu gün a-yın ü-çü-dür, Gir-mə bos-tan i-çi-dir,
Ay, hay, a yal-lı, Ay, hay, a yal-lı.
Ay, hay, a yal-lı.
tr




Sağ, sağ,
Sağ ayağın qabağa.
Sol, sol,
Sol ayağın qabağa.
Bir addım irəli,
Sol ayağın qabağa.
Bir addım geriyə,
Sağ ayağın qabağa.
Sağ ayağın irəli,
Sol ayağın irəli.

Bu gün ayın üçüdür,
Girmə bostan içidir,
Ay, hay, a yallı,
Ay, hay, a yallı.

## 13. AY LƏLİ



Bu gün ayın üçüdür,
Ay ləli qurbanın olum.
Girmə bostan içidir,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Gülü dərdim tabağa,
Yelləli qurbanın olum.
Qoydum qaldı sabaha,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Dodaqların qənd, şəkər,
Ay ləli qurbanın olum.
Dilin badam içidir,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

Yara mehman gələndə,
Yelləli qurbanın olum.
Durar çıxar qabağa,
Ya ləliyəm, ləli,
Ay ləliyəm, ləliyəm, ləli.

# 14. QARA QIZ




Atdandım Nərmanına,
Düşdüm Süleymanına, bala,
Düşdüm Süleymanına.
Kabab yedim, çay içdim,
Beynim dolu qan ilə, bala,
Beynim dolu qan ilə.

Sandıq üstə məfərə,
Gedin deyin Cəfərə, bala,
Gedin deyin Cəfərə.
Mən yarımdan küsmüşəm,
Göndərməsin səfərə, bala,
Göndərməsin səfərə.

Qara qızam, ulduzam,
Həm şəkərəm, həm duzam, bala,
Həm şəkərəm, həm duzam.
Öldürmə Süleymanım,
Mən yazığam, yalqızam, bala,
Mən yalqızam, yalqızam.

# 15. ƏLİNDƏ SAZIN QURBANI




Əlində sazın qurbanı,
Eyləmə, nazın qurbanı,
Qoy olum gözün qurbanı.

N ə q ə r a t

Getdim gördüm su doldurur,
Su yerinə qum doldurur,
Qəmzəsi oğlan öldürür.

N ə q ə r a t

Nə baxırsan yanı-yanı,
Olum gözlərin qurbanı,
Əvvəlki məhəbbət hanı?

N ə q ə r a t:

Öldürmə məni ey,
Dindirmə məni ey.
Gəl-gəl nazilən, ey nazilən, a balam,
Söhbət sazilən, ey sazilən,
Dur gəl nazilən, ey nazilən.

# 16. AYIN AYDINLIĞI




Ayın aydınlığı,
Hava nə xoşdur, ey.
Dilbərcan,
Zeybərcan.

# 17. BAĞÇADAN GƏLƏN SƏS






Bağçadan gələn ey, səs eylər, balam,

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Bülbül oxur ha, səs eylər, balam,
Öldürdün məni, bəs eylər, balam.

Abı-yaşıla ey, bürünür balam,

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Yarın dalınca ha sürünür, balam,
Yel vurur ey, sinən görünür, balam.

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.
Apararlar səni bəy yanına, balam,
Xan yanına.
Məni danasan, ay qız,
Bircə dənəsən, ay qız.

# 18. QALALIYAM






Qalalıyam, qalalı,
De gülüm nanay, ay naninay.
Kəkliyinin səkili, hay,
Kəkliyinin səkili.
Burda bir yar görmüşəm,
Burda bir yar sevmişəm, hay,
Onun kimdir vəkili, hay,
Onun kimdir vəkili.

Dam üstədir damımız,
De gülüm nanay, ay naninay.
Qoşadır eyvanımız, hay,
Qoşadır eyvanımız.
Sən ordan çıx, mən burdan, hay,
Kor olsun düşmənimiz, hay,
Kor olsun düşmənimiz.

N ə q ə r a t:

Qız belin incədir, incə,
Ləblərin qonçadır, qonça.
Məmələrin bənzər turunca,
Get, gəlirəm, yar dalınca.

# 19. BAĞIN BAĞIMCA VARMI



Bağın bağımca varmı, Məmmədqulu?
Bağında yonca varmı, Məmmədqulu?
Sevdin, ala bilmədin, ey çalpapaq,
Sevdiyin məncə varmı, Məmmədqulu?

Bənövşə deyiləm mən, Məmmədqulu,
Yel vura əyiləm mən, Məmmədqulu.
Mənə bivəfa demə, ay çalpapaq,
İlqarsız deyiləm mən, Məmmədqulu.

Qarabağın düzü var, Məmmədqulu,
Düzlərində quzu var, Məmmədqulu.
İki könül bir olsa, ay çalpapaq,
Kimin ona sözü var, Məmmədqulu.

## 20. DAĞLARDA ÇİÇƏK




Dağlarda çiçək, Məhəmmədəli,
Çin gətir biçək, Məhəmmədəli.

Dağlarda çiçək, Məhəmmədəli,
Bir üzü göyçək, Məhəmmədəli.

Bağlarda alma, Məhəmmədəli,
Uzaqda durma, Məhəmmədəli.

Boyuna qurban, Məhəmmədəli,
Toyuna qurban, Məhəmmədəli.

Oynasın qızlar, Məhəmmədəli,
Sən də oyna bir, Məhəmmədəli.

# 21. SAÇIN UCUN HÖRMƏZLƏR




Saçın ucun hörməzlər,
Səni mənə verməzlər.
Əyil, üzündən opüm,
Qaranlıqdır, görməzlər.

Arxalığın üçdümü?
Baftası gümüşdümü?
Başında şal badamı,
Alım sənin qadanı.

Dağlar başı tütündür,
Kimin bağrı bütündür?
Əyil, üzündən öpüm,
Dünya ölüm-itimdir.

# 22. AZƏRBAYCAN MARALI



Ay qız, gəzmə aralı,
Könlüm səndən yaralı.
Gözlərinə heyranam,
Azərbaycan maralı.

Sən bulaq üstə gələndə,
Qıyqacı baxıb güləndə,
Aldın səbri-qərarım,
Azərbaycan maralı.

Mən qurbanam gözlərə,
Şirin-şirin sözlərə.
Bir qonaq gəl bizlərə,
Azərbaycan maralı.

O günə qurban kəsərəm,
Gəlməsən səndən küsərəm.
Gəzərəm səndən aralı,
Azərbaycan maralı.

Gedək Qırx qız yaylağına,
Maral, ceyran oylağına.
Enək İsa bulağına,
Azərbaycan maralı.

Turşsu olsun yaylağımız,
Gözəl Şuşa oylağımız.
Sən olaydın qonağımız,
Azərbaycan maralı.

# 23. GÜL OĞLAN

**Moderato**



Qızılgül oyum-oyum,
Dərim sinəmə qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum.

N ə q ə r a t

Bu dağdan aşmaq olmaz,
Narıncı başmaq olmaz.
Bir cüt öpüşdən ötrü,
Yarnan savaşmaq olmaz.

N ə q ə r a t

Evləri köndələn yar,
Bizə gül göndərən yar.
Gülün yarpıza dönsün
Məndən üz döndərən yar.

N ə q ə r a t

Alma versəm almazsan,
Sən almadan qalmazsan,
Hansı bağın gülüsən,
İylədikcə solmazsan.

N ə q ə r a t:

Özü bir gül,
Sözü bir gül,
Saçı sünbül, gül oğlan!
Dur gəl, mən sənə qurban.
Ay çalpapaq,
Boz çuxa,
Çit arxalıq, gül oğlan!
Atını yan çək,
Top qarabirçək
Hamıdan göyçək, gül oğlan!

# 24. YAR BİZƏ QONAQ GƏLƏCƏK




Ala gözün aldı canım,
Əldən gedib tab-təvanım,
Sənə qurban mənim canım.

Dara zülfün, sal hər yana,
Gözləri bənzər ceyrana,
Baxdım qaldım yana-yana.

Şamamalar xallı-xallı,
Yar geyinib yaşıl-allı,
Boyu bəstə, üzü xallı.

N ə q ə r a t:

Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, balam,
Olsun ki, sabah gələcək.

# 25. QARA GİLƏ


Andante
1. Gəl – mi – şəm o – ta – ğı – na o – ya – dam sə –
Nə gö – zəl xəlq ey – lə – miş ya – ra – dan sə –
–ni, Qa – ra gi – lə, o – ya – dam sə – ni,
–ni, Qa – ra gi – lə, ya – ra – dan sə – ni.
Gö – tü – rüb mən qa – ça – ram a – ra – dan sə –
–ni, Qa – ra gi – lə, a – ra – dan sə – ni.
Qı – zıl – gül əs – di, səb – ri – mi kəs –
–di. Sil gö – zün ya – şın, qa – ra gi – lə,
Ağ – la – ma bəs – di. ://-di.

Gəlmişəm otağına oyadam səni,
Qara gilə, oyadam səni.
Nə gözəl xəlq eyləmiş yaradan səni,
Qara gilə, yaradan səni,
Götürüb mən qaçaram aradan səni,
Qara gilə, aradan səni.

N ə q ə r a t:

Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sil gözün yaşın, qara gilə,
Ağlama bəsdi.

Təbrizin küçələri dolanbadolan,
Qara gilə, dolanbadolan.
Əgər məni sevmirsən, get ayrı dolan,
Qara gilə, get ayrı dolan.
Nə mənə qız qəhətdir, nə sənə oğlan,
Qara gilə, nə sənə oğlan.

N ə q ə r a t:

Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sil gözün yaşın, qara gilə,
Ağlama bəsdi.

Evimizin qabağı su gələn arxdı,
Qara gilə, su gələn arxdı,
Durum, çıxım eyvana, yar gələn vaxtdı,
Qara gilə, yar gələn vaxtdı,
Yarım gəlib çıxmayır, ovqatım talxdı,
Qara gilə, ovqatım talxdı.

N ə q ə r a t:

Dərbənd aralı,
Könlüm yaralı.
Bir yar sevmişəm, qara gilə
Ellər maralı.

# 26. GÖZƏLİM SƏNSƏN

**Andantino e molto espressivo**




Gözəlim sənsən,
Gözümün nuru.
Cənnətdə yoxdur
Sənin tək huri.

Uca dağ başında
Ceyran yol eylər,
Ürəyimin başında
Tikan kol eylər.

Öldürür məni
Yarımın cövrü,
Ona mən vuruldum,
Ona mən yar oldum.

Gözəlim sənsən,
Gözümün nuru.
Cənnətdə yoxdur
Sənin tək huri.

N ə q ə r a t:

Yaralıyam, dəymə, dəymə, dəymə, dəymə!
Gülümün butasın əymə, əymə, əymə!

# 27. GÜL AÇDI




Gül açdı, xəndan oldu,
Dərmədim dən-dən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

Qızılgül həşəm oldu,
Dərmədim həşəm oldu.
Səndən ayrılan gündən,
Ağlamaq peşəm oldu.

N ə q ə r a t:

Gülüm, naz ilə, naz ilə baxma,
Könlümü yandırıb yaxma.

# 28. KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM

**Moderato cantabile**




Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.
Elə gəlsin, elə getsin,
Aramızda söz olmasın.

Samavara od salmışam,
İstəkana qənd salmışam.
Yarım gedib, tək qalmışam,
Nə əzizdir yarın canı!

Kasaları irəfdədir,
Hər biri bir tərəfdədir,
Görməmişəm bir həftədir,
Nə şirindir yarın canı!

# 29. NƏ GÖZƏLDİR

**Andante cantabile**






Bu cəh-cəh edən bülbül,
Bax, gör nə gözəldir!
Güllər arası sünbül,
Bax, gör nə gözəldir!

Sevdim səni mən, yarım,
Bir gəl mənə sən rəhm et.
Bax, bu çəmənə bir də,
Hər yerdə çiçək, gül,
Bax, gör nə gözəldir!

# 30. AY DİLBƏR

**Moderato**




Dağların başın
Qışda qar alar,
Yar yarın görməsə
Rəngi saralar.

Araz dərindir,
Suyu sərindir.
Gəl nazlı dilbərim,
Bir məni dindir.

N ə q ə r a t:

Ay gözəlim, ay mələyim,
Gəl məni dindir.
Qəlbim sənindir.
Dövran nə gözəl, nə gözəl, nə gözəl!
Canan nə gözəl, nə gözəl, nə gözəl!
Ay dilbər, can dilbər, çal dilbər,
Tellər oynasın.

# 31. YERİ, DAM ÜSTƏ YERİ

**Andante**




Yeri, dam üstə yeri, balam,
Ay qızıl cam üstə yeri.
Ayaqların incisə, balam,
Ay çıx sinəm üstə yeri.

Zərxaradan arxalıq, balam,
Ay əşröfidən yaxalıq.
Bir busə ver cüt xaldan, balam,
Ay dadına yetsin xalıq.

N ə q ə r a t:

Getdim gördüm yar otaqda.
Qoşa-qoşa xal yanaqda.
Busə yeri var buxaqda,
Al yanaqda, al dodaqda, gül yanaqda.

# 32. NAZLI YAR




Nazlı yarım qara gözlü,
Heyran, heyran baxar özü.
Şəfəq salan yanaqları,
Yandırar bayrı-düzü.

N ə q ə r a t:

Yaz olcağın bağlarda gəzər,
Qızılgüldən gör nələr bəzər.
Çiçəklər bəzənmiş telində,
Ah, nə incəlik var belində.

Göy otlar üstündə yatar,
Kətan köynək gülə batar.
Külək vurar ağ örpəyin,
Oyan-buyana atar.

N ə q ə r a t:

Yaz olcağın bağlarda gəzər,
Qızılgüldən gör nələr bəzər.
Çiçəklər bəzənmiş telində,
Ah, nə incəlik var belində.

# 33. AÇ XURCUNU




Ay qız, kimin qızısan?
Almadan qırmızısan.
Atan, anan bəsləmiş,
Axırda mənimkisən.

Aç xurcunu,
Al bıçağı,
Kəs almanı,
Ver yara dilim-dilim,
Dilim-dilim, dilim-dilim.

Araqçının haşımı,
Hara qoyum başımı.
Səni mənə vermirlər,
Tökmə gözün yaşını.

Aç xurcunu,
Al bıçağı,
Kəs almanı,
Ver yara dilim-dilim,
Dilim-dilim, dilim-dilim.

# 34. YADIMA SƏN DÜŞƏNDƏ

**Andante con moto**




Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə,
Ruhum bədəndə oynar
Yadıma sən düşəndə.

Bu qala daşlı qala,
Çınqıllı, daşlı qala.
Qorxuram gec gələsən,
Gözlərim yaşlı qala.

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm –
Heç biri olmayaydı.

# 35. GƏL, GƏL, SEVİRƏM SƏNİ

**Allegro moderato**



Gül açılanda yaz olur, bəh, bəh, bəh!
Kədərim, qəmim az olur, bəh, bəh, bəh!
Gözəldə işvə, naz olur, bəh, bəh, bəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni!

Yarın bağında şirin olur üzüm,
Sənin ayrılığına necə dözüm.
Sənə qurban olsun bu iki gözüm,
Gəl, gəl, gözəl yar, sevirəm səni!

Bülbül bağlarda səs salır, cəh, cəh, cəh!
Güllərin ətrini alır, bəh, bəh, bəh!
Musiqi səsi ucalır, cəh, cəh, cəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni!

# 36. DEDİM BİR BUSƏ VER




Dedim: “Bir busə ver, bir busə ver, xanım, amandır”.
Dedi: “Vermərəm”. Dedi: “Vermərəm, vermərəm,
Vermərəm, vermərəm, halım yamandır”.
Dedi: “Vermərəm, vermərəm, məgər talandır?”

Dedim: “Gəl yanıma, gəl yanıma, qadan canıma”.
Dedi: “Gəlmərəm”. Dedi: “Gəlmərəm, gəlmərəm,
Gəlmərəm, gəlmərəm, məgər zamandır?”
Dedi: “Gəlmərəm, gəlmərəm, halım yamandır”.

# 37. ÇALPAPAQ

D.Məmmədbəyovun not yazısı

**Allegro moderato**




## Variant

S.Rüstəmovun not yazısı

**Allegro moderato**



Mən gedirəm, səni kimə tapşırım?
Ağlaya-ağlaya qal innən belə.

Nə müddətdir əmanətin məndədir.
Saxlaya bilmirəm, al innən belə.

N ə q ə r a t:

Hey, hey, çalpapaq,
Hey, hey, gülyanaq,
Neçin oldun bidamaq?

## Mətnin variantı

Sevgisiz yaşamaq bir an olarmı?
Dünyada eşqisiz insan olarmı?
Mən səni sevmişəm xəbərin varmı?

Könül sevməz özgələri, yadları
Mən pozmaram öz əhdimi, ilqarı
Bircə dəfə sən də bizə gəl barı.

Gəlin gedək bizim bağa, xəzələ,
Gözüm düşüb sənin kimi gözələ,
Bir könül ver, sevgimizi təzələ.

N ə q ə r a t:

Ey, ey, çalpapaq,
Ey, ey, gülyanaq,
Neçin oldun bidamaq.

# 38. GÖZƏL




Gözəl, sənə məlum olsun,
Alışıram, yanıram mən.
Ala gözlərin görəndə
Canımdan usanıram mən.

Mənim adım Ələsgərdi,
Adım dillərdə əzbərdi.
Xalların dürrü gövhərdi
Sərrafıyam, tanıram mən.

N ə q ə r a t:

Hansı dağın maralısan,
Hayıf, məndən aralısan.
Sən də yardan yaralısan,
Duruşundan qanıram mən.

# 39. BAĞÇADA GÜL




Şəfəq saçır gün bizə,
Pəh-pəh, nə gözəl olur.
Çıxaq tarlaya, düzə,
Pəh-pəh, nə gözəl olur.
Qızlar, bu al səhərdə
Gəlin, duraq üz-üzə.

Tarlalarda biz gəzək,
Pəh-pəh, nə gözəl olur.
Pambıq dərək, gül dərək,
Pəh-pəh, nə gözəl olur.
Muğanın sərvətindən
Hər tərəfə göndərək.

N ə q ə r a t:

Bağçalar gül açır,
Bülbüllər dil açır,
Geyinir al-əlvan,
Pəh-pəh, nə gözəl.

# 40. YAXAN DÜYMƏLƏ

**Moderato**



Sallanıban gələn dilbər,
Yaxan düymələ, düymələ.
Məni dərdə salan dilbər,
Yaxan düymələ, düymələ.

N ə q ə r a t:

Dərdin alım, dərdin alım,
Dərdin alım, dərdini.
Məni dərdə salan dilbər,
Yaxan düymələ, düymələ.

Yaşıllıqda quzu mələr,
Quzu mələr, çoban gülər.
Sənin kimi yosma dilbər,
Yaxan düymələ, düymələ.

N ə q ə r a t:

Dərdin alım, dərdin alım,
Dərdin alım, dərdini.
Sənin kimi yosma dilbər,
Yaxan düymələ, düymələ.

Kərəm sənə nələr demiş,
O dil, dodağını yemiş,
Kətan köynək, bəndi gümüş,
Yaxan düymələ, düymələ.

N ə q ə r a t:

Dərdin alım, dərdin alım,
Dərdin alım, dərdini.
Kətan köynək, bəndi gümüş,
Yaxan düymələ, düymələ.

Köynəyinin gülü yaşıl,
Süsən sünbülə dolaşır.
Gözəllik sənə yaraşır.
Yaxan düymələ, düymələ.

N ə q ə r a t:

Dərdin alım, dərdin alım,
Dərdin alım, dərdini.
Gözəllik sənə yaraşır.
Yaxan düymələ, düymələ.

# 41. BAZARDA ALMA




Bazardan alma allam, sataram,
Xəlvətdə durma, gəlləm taparam.

Bağlardan çiçək dərrəm, sataram,
Bir üzü göyçək hardan taparam?!

Bazardan hulu allam, sataram,
Bir uca boylu hardan taparam?!

N ə q ə r a t:

Haray, yar əlindən,
O qara tellərindən.
Əgər izin versən, bala,
Öpərəm gözlərindən.

# 42. GETDİ YAR




Başına dolanım, harda qalmısan,
İntizar gözümü yolda qoymusan.
Belə məlum olur ki, məndən doymusan.

Mən sənə neyləmişəm, ceyran balası,
Ürəyimə vurmusan hicran yarası.
O yarı mən sevirəm, nədir çarəsi?

Boynuna salmısan zülfündən zəncir,
Mən sənin əsirinəm, gəl, məni dindir,
Şirin-şirin sözlərlə könlümü dindir.

N ə q ə r a t:

Getdi yar, getdi yar, aldatdı məni,
Yarımın qüssəsi saraltdı məni.

# 43. CEYRAN SEVGİLİM



Küçəmizdən keçən qız,
Sona kimi süzən qız,
Qara telin hər yana
Dəstə-dəstə düzən qız.

N ə q ə r a t:

Gəl-gəl, gəl-gəl, ay qız,
Belə ceyran sevgilim.
Dur gəl, dur gəl, ay qız,
Belə mənim öz gülüm.

Nə gözəl qamətin var,
Üzün ay kimi parlar,
Gözlərin şölə çəkib
Can evimi alovlar.

N ə q ə r a t:

Gəl-gəl, gəl-gəl, ay qız,
Belə ceyran sevgilim.
Dur gəl, dur gəl, ay qız,
Belə mənim öz gülüm.

Gözüm qalıbdır səndə,
Gəl gəzək bu çəməndə.
Deyək, gülək, danışaq
Bu gözəl vətəndə.

N ə q ə r a t:

Gəl-gəl, gəl-gəl, ay qız,
Belə ceyran sevgilim.
Dur gəl, dur gəl, ay qız,
Belə mənim öz gülüm.

# 44. BƏRİ BAX




Pəncərənin milləri,
Ay bəri bax, bəri bax.
Açıb qızılgülləri,
Ay bəri bax, bəri bax.
Oğlanı yoldan eylər,
Ay bəri bax, bəri bax.
Qızın şirin dilləri,
Ay bəri bax, bəri bax.

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.
Səni mənə versələr,
Ay bəri bax, bəri bax.
Hər görənə xoş gəlir.
Ay bəri bax, bəri bax.

Pəncərəni bağlama,
Ay bəri bax, bəri bax.
Mən gedirəm ağlama,
Ay bəri bax, bəri bax.
Gedib yenə gələrəm,
Ay bəri bax, bəri bax.
Özgəyə bel bağlama,
Ay bəri bax, bəri bax.

# 45. AY QIZ, SƏNƏ MAYİLƏM

**Allegretto**




Ay qız, sənə mayiləm,
Boynunda həmayiləm.
Dost payı şirin olar,
Hər nə versən qayiləm.

Qaşın, gözün, şirin sözün
Aldı mənim canımı.

Mən sənə qurban,
Gözləri mərcan.
Ay xanım, xanım,
Sən mənim canım,
Gəl səni alım,
Qadanı alım,
Ay gözəl.

# 46. DAĞISTAN




Bəzi müasir ifaçılar bu mahnıya nəqərat şəklində aşağıda göstərilən musiqi parçasını əlavə edirlər:




Dağıstan dağ yeridir,
Gürcüstan bağ yeridir.
Dağılmış Carbazarı, ay balam,
Qızların bol yeridir.

Paprosum yana-yana,
Od düşüb şirin cana,
Səni qoyub gedərəm, ay quzum,
Qalarsan yana-yana.

Bu dağda maral gəzər,
Telini darar gəzər.
Mən yara neyləmişəm, ay gülüm,
Yar məndən kənar gəzər.

# 47. AY QADASI

**Allegro moderato**




Qaşların hilal,
Ağ üzündə xal,
Məndə yoxdur hal,
Ay qadası.

Ay bala, Fatma,
Qaşları çatma,
Gəl məni atma,
Ay qadası.

Yandım eşqinə,
Qurbanam sənə,
Naz etmə mənə,
Ay qadası.

Əqlimi aldın,
Bu günə saldın,
Mən yalqız qaldım,
Ay qadası.

N ə q ə r a t:

Sözlərin şəkər,
Olmasam, əgər,
Kim nazın çəkər,
Ay qadası?

# 48. SƏNSƏN GÖZƏLİM




Sənsən gözəlim, etməm giley mən.
Etsəm düşərəm, bala, dildən-dilə mən.

Bir bülbül idim, uçdum çəmənə,
Düşsəm qonaram, bala, güldən-gülə mən.

N ə q ə r a t:

Sən get gecələr əğyar ilə gəz.
Qoy sübh eyləyim, bala, ahu ilə mən.

# 49. AY QIZ, HEYRANIN OLLAM




Bağa girdim üzümə,
Tikan batdı dizimə,
Əyildim çıxartmağa, bala,
Yar göründü gözümə.

Meynədə üzüm qaldı,
Dərmədim gözüm qaldı,
Bir evdə iki bacı, bala,
Birində gözüm qaldı.

N ə q ə r a t:

Ay qız, heyranın ollam,
Ay qız, ceyranın ollam.
Gedərsən yola sallam,
Qalarsan qadan allam.
Gedərsən yola sallam, bala,
Qalarsan qadan allam.

# 50. GÜLƏ-GÜLƏ


Allegro
tr
1. Nə dur – mu – san dağ ba – şın – da qar ki – mi,
tr
Bağ – ça – mız – da hey – va ki – mi, nar ki – mi.
Tut ə – lim – dən, ge – dək bi – zə yar ki – mi.
Gü – lə – gü – lə, gü – lə – gü – lə, ay xa – nım,
Sə – nə qur – ban ol – sun bu şi – rin ca – nım.
tr
tr
Gü – lə – gü – lə, gü – lə – gü – lə, ay xa – nım,
tr
tr
Sə – nə qur – ban ol – sun bu şi – rin ca – nım.

Nə durmusan dağ başında qar kimi,
Bağçamızda heyva kimi, nar kimi.
Tut əlimdən, gedək bizə yar kimi.

N ə q ə r a t:

Gülə-gülə, gülə-gülə, ay xanım,
Sənə qurban olsun bu şirin canım.

Gülüşlərin cingildəsin saz kimi,
Hər tərəfə yayılsın avaz kimi.
Sən güləndə gülür gülsün yaz kimi.

N ə q ə r a t:

Gülə-gülə, gülə-gülə, ay xanım,
Gülə-gülə, gülə-gülə, al canım.

Elə gül ki, yar yuxudan oyansın,
Elə gül ki, yar, qadanı yar alsın,
Sarmaşıqtək qol boynuna sarılsın.

N ə q ə r a t:

Gülə-gülə, gülə-gülə, ay xanım,
Sənə qurban olsun bu şirin canım.

Yal-çəmənlər açıb çiçəklənəndə,
Bənövşələr küsüb boynun əyəndə,
Şeh düşübən güllər qəşəngləndə.

N ə q ə r a t:

Gülə-gülə, gülə-gülə, ay xanım,
Gülə-gülə, gülə-gülə, al canım.

# 51. AMAN NƏNƏ

**Allegretto**



Asta yeri, kəmər düşər belindən,
Aman nənə, zalım nənə, yar nənə!
Ayrı düşdüm gülümdən, bülbülümdən,
Aman nənə, zalım nənə, yar nənə!
O qədər sevirəm düşməz dilimdən ay,
Aman yar ay, zalım yar ay,
Gözəl yar ay, gül yarım!

N ə q ə r a t:

Aman nənə, zalım nənə, yar nənə hey,
Yar nənə hey, yar nənə hey, yar nənə!

Bir yaylığım vardı gülü özündən,
Aman nənə, zalım nənə, yar nənə!
Dolanır başıma özü-özündən,
Aman nənə, zalım nənə, yar nənə!
Mən nə dedim, küsdün mənim sözümdən?
Aman yar ay, zalım yar ay,
Gözəl yar ay, gül yarım!

N ə q ə r a t:

Aman nənə, zalım nənə, yar nənə hey,
Yar nənə hey, yar nənə hey, yar nənə!

Yarıma demişəm mənə saz alsın,
Aman nənə, zalım nənə, yar nənə!
Onu çalım dərdü-qəmim azalsın.
Aman nənə, zalım nənə, yar nənə!
Məgər mən ölmüşəm yarım qız alsın?
Aman yar ay, zalım yar ay,
Gözəl yar ay, gül yarım!

N ə q ə r a t:

Aman nənə, zalım nənə, yar nənə hey,
Yar nənə hey, yar nənə hey, yar nənə!

Bəs sən demişdin sənə mən yar ollam,
Aman nənə, zalım nənə, yar nənə!
Qəmli günündə sənə qəmxar ollam,
Aman nənə, zalım nənə, yar nənə!
Dur gəl yanıma sənə qurban ollam ay,
Aman yar ay, zalım yar ay,
Gözəl yar ay, gül yarım!

N ə q ə r a t:

Aman nənə, zalım nənə, yar nənə hey,
Yar nənə hey, yar nənə hey, yar nənə!

# 52. AĞACDA LEYLƏK




– Ağacda leylək yuva bağlar, gedər,
Ay qız, sevən oğlan hara ağlar gedər.

– Mən sənin yarın deyiləm, ay oğlan,
Ay, bağçada barın deyiləm, ay oğlan.

– Alışdım yandım, xəbərin yox sənin,
Ay, mehri-vəfadan əsərin yox sənin.

– Mən sənin yarın deyiləm, ay oğlan,
Ay, bağçada barın deyiləm, ay oğlan.

# 53. GƏLMƏ, GƏLMƏ






Gəlmə, gəlmə, get, ay gülüm,
Ay dolandı, keçdi günüm.

Mən sənin kimi bivəfa,
Yarı neylərəm, ay gülüm.

Mən çökərkən eşqə cəfa
Sən sürürdün onda səfa.

Mən sənin kimi bivəfa
Yarı neylərəm, ay gülüm.

Bir güləm özüm, ay balam,
Bir gül istərəm, ay gülüm.

Çəkməyən cəfa, ay balam,
Yarı neylərəm, ay gülüm.

# 54. YERİ HA, YERİ HA

D.Məmmədbəyovun not yazısı



## Variant

S.Rüstəmovun not yazısı

**Moderato**




Yeri ha, yeri ha, küsmüşəm səndən,
Ayrılıq şərabı içmişəm səndən, a dilbər.

Sən bir sərv ağacı, mən bir göyərçin,
Bivəfa çıxıbsan küsmüşəm səndən, a dilbər.

Gedirəm, gəlirəm xəbərin olsun,
Gümüş piyalələr mey ilə dolsun, a dilbər.

Əgər yar sənindir, qoy mənim olsun,
İndi anlamışam təzə yarın var, a dilbər.

# 55. KƏKLİK

**Moderato**



# 56. BİR CÜT SONA



Ay ana, bu bir cüt sonanın,
Hansına qurban mən olum.
Süzgün baxıb can alanın,
Hansına qurban mən olum.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

Səhərdən seyrana çıxdım,
Yarı gördüm bağ içində.
Dərər, dərər, dəstə bağlar,
Qızılgül yarpaq içində.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

Səhər-səhər durar gəzər,
Gümüş kəməri belində.
Təzə doğmuş Aya bənzər,
Hansına qurban mən olum.

N ə q ə r a t:

Ay elli, günlü bəxtəvər,
Baxçası güllü bəxtəvər,
Ay şirin dilli bəxtəvər,
Ay şirin dilli bəxtəvər.

# 57. ONU DEMƏ ZALIM YAR




Onu demə, zalım yar,
Dərdin, bəlan alım yar.
Sən ki belə deyildin,
Səni bir öyrədən var.

Qurban olum o gözlərə,
Məni salıb nə günlərə.

# 58. MƏRƏNDDƏN AŞDIM




Mərənddən aşdım Xoya qoymadılar,
Bəzəndim getdim toya qoymadılar.

Yar sənə qurban,
Can sənə qurban,
Özüm də sənə qurban,
Gözüm də sənə qurban.

# 59. ARAXÇININ MƏNDƏDİR



Araxçının məndədir,
Sərmişəm çəməndədir,
Aləm gözələ dönsə,
Mənim gözüm səndədir.

Araxçının dar-darı,
Gəl başımın sərdarı.
Evimizə gəlməsən,
Qonşumuza gəl, barı.

N ə q ə r a t:

Yar neylədim, neylədim sənə,
Bir dönüb baxmadın mənə.

# 60. AY BÜLBÜLLƏR




Aman, aman ayrılıq, ay bülbüllər,
Olur yaman ayrılıq, ay bülbüllər,
Eşidəndə başımdan, ay bülbüllər,
Qalxır duman ayrılıq, ay bülbüllər.

Gülərəm gülən ola, ay bülbüllər,
Dərdimi bilən ola, ay bülbüllər,
Ağlamaqdan doymaram, ay bülbüllər.
Göz yaşım silən ola, ay bülbüllər.

# 61. EVLƏRİ VAR XANA-XANA

**Moderato**




Evləri var, a gülüm, xana-xana,
Mən kül oldum aman, aman, yana-yana.
Yaylığının yanı buta,
Məni saldın aman, aman, yanar oda.

Obaları, a gülüm, oymaq-oymaq,
Heç olmazmış aman, aman, yardan doymaq.
Üzün gülər, ləbin qaymaq,
Yalan sözdür aman, aman, yardan doymaq.

# 62. GET, AY BATANDAN SONRA GƏL



Gecə uzun, ay dolanır batmağa,
Ellər gedir rəxtixaba yatmağa.
Az qalıbdır mətləbinə çatmağa.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.

Gözlərin göyçəkdir, boyundur bəstə,
Dilin badam içi, dodağın püstə,
Hər nə desən, cümləsi gözüm üstə.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.

Bizim bağın bağçası var, barı var,
Gözəl-gözəl heyvası var, narı var.
Heç yatmayır bir imansız qarı var.

N ə q ə r a t:

Get, ay batandan sonra gəl, ay oğlan,
Nənəm yatandan sonra gəl, ay oğlan.

# 63. XUMAR OLDUM

**Allegretto moderato**



Mən gəlmişəm sənə qonaq,
Ay qız, mənə bax, bax.
Mənə bişir bir qayğanaq,
Maral, mənə bax, bax,
Gözəl, mənə bax, bax.

N ə q ə r a t:

Xumar oldum, xumar oldum,
Xumar oldum, xumar.
Kətan köynək, nazik bədən,
Gördüm, bihal oldum, bihal oldum,
Bihal oldum, bihal.

Getdim, gördüm bağda yatıb,
Ay qız, mənə bax, bax.
Qara tellər gülə batıb,
Maral, mənə bax, bax,
Gözəl, mənə bax, bax.

N ə q ə r a t:

Xumar oldum, xumar oldum,
Xumar oldum, xumar.
Kətan köynək, nazik bədən,
Gördüm, bihal oldum, bihal oldum,
Bihal oldum, bihal.

Evlərinin dalı qaya,
Ay qız, mənə bax, bax.
Qayadan baxarlar Aya,
Maral, mənə bax, bax,
Gözəl, mənə bax, bax.

N ə q ə r a t:

Xumar oldum, xumar oldum,
Xumar oldum, xumar.
Kətan köynək, nazik bədən,
Gördüm, bihal oldum, bihal oldum,
Bihal oldum, bihal.

# 64. GÖYDƏ ULDUZ ƏLLİDİR




Göydə ulduz əllidir,
Əllisi də bəllidir.
Aşnabazlıq edəni, aman,
Gözlərindən bəllidir.

Ay gələr günbatana,
Gedər ellər yatana.
Əgər məni sevirsən, aman,
Elçi göndər atama.

Bu dərə buz bağladı,
Dibi yarpız bağladı.
Gəlin vurub oxladı, aman
Yaramı qız bağladı.

# 65. QADAN ALIM

**Allegretto**




Araz axır qıyqacı,
Ay qız, ay qız, ay qız, amandır.
Budur gəlir cüt bacı,
Qadan alım.
Biri mənim sevgilim,
Ay qız, ay qız, ay qız, amandır,
Biri başımın tacı,
Qadan alım.

Arazı ayırdılar,
Ay qız, ay qız, ay qız, amandır.
Su ilə doyurdular,
Qadan alım.
Mən səndən ayrılmazdım,
Ay qız, ay qız, ay qız, amandır,
Zülmlə ayırdılar,
Qadan alım.

# 66. NƏ HALƏTDİR






Nə halətdir ki, mən düşdüm,
Nə etdim bilmədim yarə.
Həbibim gəl, təbibim gəl,
Qəmu-eşqə edək çarə.

Məni dövrü fələk qoymuş,
Biyabanlarda avarə.
Həbibim gəl, təbibim gəl,
Qəmu-eşqə edək çarə.

# 67. CƏLAL XALIQ




Cəlal xalıq, cəlal xalıq,
Gör necə dövran yaradıb.
Bir belə dövran içində, } 2 dəfə
Gör necə canan yaradıb, bala,
Dərdlərə dərman yaradıb.

# 68. BİR ALAGÖZ

**Moderato**




Bir alagöz,
Bir alagözlü yar,
Uzun boylunu,
Neylim, neylim.
Neylim, neylim,
Hər yana baxanda
Öldürür məni,
Ay yazıq canım.

# 69. SONA BÜLBÜLLƏR

**Moderato**



Su atdım, yara dəydi,
Sona bülbüllər!
Əlim divara dəydi,
Sona bülbüllər!
Dilim, ağzım qurusun,
Sona bülbüllər!
Nə dedim yara dəydi,
Saçı sünbüllər!
Elə yar, yar, deyirlər,
Heç məni demirlər,
Saçı sünbüllər!

N ə q ə r a t:

Elə yar, yar deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər,
Ay saçı sünbüllər!

Evləri köndələn yar,
Sona bülbüllər!
Bizə gül göndərən yar,
Saçı sünbüllər!
Gülün yarpıza dönsün,
Sona bülbüllər!
Bizdən üz döndərən yar,
Saçı sünbüllər!

N ə q ə r a t:

Elə yar, yar deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər,
Ay saçı sünbüllər!

Dəryada gəmim qaldı,
Sona bülbüllər!
Biçmədim zəmim qaldı,
Saçı sünbüllər!
Çox çəkdim yar cəfasın,
Sona bülbüllər!
Mənə də qəmim qaldı,
Saçı sünbüllər!

N ə q ə r a t:

Elə yar, yar deyirlər,
Heç məni demirlər,
Ay sona bülbüllər,
Ay saçı sünbüllər!

# 70. ALMANI ATDIM XARALA



Almanı atdım xarala,
Qaldı sarala-sarala!
Dağlarda döndün marala,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Gəlin, haralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?

Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol, gəl, var ol, gəl,
Bir gecə mehman ol, gəl.

Gəlin gedək bizim bağa,
Hərə çıxaq bir budağa.
Ləb-ləbə, dodaq-dodağa,
Ay tirmə köynək,
Ay sarı çəpkən,
Gəlin, haralısan?
Özü göyçək, sözü göyçək,
Hara maralısan?

Yarın bağında üzüm əsgəri,
Bağın dalından həzin səs gəlir,
Sağ ol, gəl, var ol, gəl,
Bir gecə mehman ol, gəl.

# 71. ALMA




Alma almaya bənzər,
Alma ağacı gözəl, mama,
Qarabağın qızları,
Ahu, ceyrana bənzər, mama.

Alma atdım, nar gəldi,
Kətan köynək dar gəldi, mama.
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi, mama.

N ə q ə r a t:

Ay gözəl, öz gülümsən,
Gülümsən, bülbülümsən, mama.

# 72. BAĞA GİRDİM ÜZÜMƏ




Bağa girdim üzümə,
Tikan batdı dizimə.
Əyildim çıxartmağa, gülüm,
Yar göründü gözümə.

N ə q ə r a t

Yeri, yeri nişan yar,
Yeri, eşqə düşən yar.
Elçiləri qırılmış, gülüm,
Özü elçi düşən yar?

N ə q ə r a t

Su atdım, yara dəydi,
Əlim divara dəydi.
Dilim, ağzım qurusun, gülüm,
Nə dedim yara dəydi.

N ə q ə r a t:

Oğlan, heyranın ollam,
Oğlan, qurbanın ollam.
Gedərsən, yola sallam, gülüm,
Qalarsan, qadan allam.

# 73. SÜSƏN SÜNBÜL






Süsən sünbül, ay balam, bitirmişəm,
Mən yarımı, ay gülüm, itirmişəm.
Ömrü başa, ay balam, yetirmişəm,
Aman Gülgəz, yarım hanı, gülüm hanı?

N ə q ə r a t:

O məh camalın, ay gözəl, ağ üzdə xalın,
Öldürdü məni, ay gözəl, yandırdı məni,
Nədir xəyalın!

Yar əlindən, ay balam, badə içdim,
Mətləbimə, ay gülüm, mən yetişdim.
Kəcavəsın, ay balam, bəzəmişdim,
Aman Gülgəz, balam hanı, gülüm hanı?

N ə q ə r a t:

O məh camalın, ay gözəl, ağ üzdə xalın,
Öldürdü məni, ay gözəl, yandırdı məni,
Nədir xəyalın!

# 74. BƏH-BƏH

**Moderato**




Gül açılanda yaz olar, bəh, bəh, bəh,
Dərdin o vaxtı az olar, bəh, bəh, bəh,
Gözəldə işvə-naz olar, bəh, bəh, bəh,
Gəl, gəl, gözəl yar, sevirəm səni.

Yarın bağında şirin olur üzüm,
Yarın ayrılığına necə dözüm,
Yara qurban olsun bu iki gözüm,
Gəl, gəl, gözəl yar, sevirəm səni.

Bağında gül əkərəm mən əzəldən,
Quş gələndə dən tökərəm xəzəldən,
Mən necə doyum sən kimi gözəldən,
Gəl, gəl, gözəl yar, sevirəm səni.

# 75. SONA XANIM




Sona xanım, çıx eyvana,
Bir bax bu gözəl oğlana,
Doğrusun söylə mərdana,
Üzündə xalı yaxşıdır.

Getdim gördüm bağda yatır,
Qara zülfü gülə batır,
Məni görcək qaş-göz atır,
Üzündə xalı yaxşıdır.

Getdim gördüm bulaqdadır,
Əl-üzünü yumaqdadır,
Qoşa xallar yanaqdadır,
Yanaqda xalı yaxşıdır.

# 76. AY DİLİ-DİLİ



Evlərinin dalı hündür olaydı,
Ay dili-dili, dili-dili, dilavər.
Zərxaradan bir cüt donum olaydı,
Ay dili-dili, dili-dili, dilavər.

Bu gələn yar mənim yarım olaydı,
Ay dili-dili, ay dili-dili, dilavər,
Ay dili-dili, ay dili-dili, dilavər.

Evlərinin dalı hündür məsciddir,
Ay dili-dili, dili-dili, dilavər.
Ay qız, arxalığın nə güllü çitdir,
Ay dili-dili, dili-dili, dilavər.

Məgər mən ölmüşəm, rəngin qaçıbdır,
Ay dili-dili, ay dili-dili, dilavər,
Ay dili-dili, ay dili-dili, dilavər.

# 77. MİNƏYDİM ATIN KƏHƏRİNİ




Minəydim atın kəhərini,
Gəzəydim kürdün şəhərini,
Bala-bala yaxan düymələ, düymələ.

Çıxaydım kürdün dağlarına,
Baxaydım yarın bağlarına,
Bala-bala yaxan düymələ, düymələ.

# 78. AY GÖZƏL




O ğ l a n: Ay gözəl, gedək gəzməyə bağa,
Qoy bir az baxım o gül yanağa.
Q ı z: Yanaqlarımı neynirsən, oğlan,
Dağlarda çiçək görməmisənmi?

O ğ l a n: Ay qız, sevmişəm gül camalını,
Bir insaf elə, göstər xalını.
Q ı z: Oğlan, gəl burax xam xəyalını,
Məgər hil, mixək görməmisənmi?

O ğ l a n: Xurma dodağın dərdimə dərman,
Onları mənə göstər, ay canan.
Q ı z: Dodaqlarımı neynirsən, oğlan,
Məgər beçə bal görməmisənmi?

O ğ l a n: Sən bizim evdə nazlı bir dilbər,
Səbrim qalmadı, qaşını göstər.
Q ı z: Oğlan, qaşımı neynirsən, məgər,
Gecələr hilal görməmisənmi?

# 79. SÜRMƏLİ QIZ




Sudan gələn, sürməli qız,
Çox incidir kuzə səni.
Elə naz ilə sən gəlirsən,
Aparırlar bizə səni,
Aparırlar bizə səni.

Kuzənə ipək düzərəm,
Eşqinlə çöllər gəzərəm.
Bəs mən sənsiz necə dözərəm?
Di dur gəl, aman günüdür.
Eşqimin yaman günüdür.

Kuzəni əlindən allam,
Qolunu boynuma sallam.
Ay qız, səni mən özüm allam,
Di dur gəl, aman günüdür.
Eşqimin yaman günüdür.

# 80. YAYLIQ




Q ı z: Anamdan bir yaylıq aldım,
Heç bilmirəm harda saldım.
Səndədirsə, ver yaylığı,
Yaylıq salar ayrılığı, yar, yarcan,
Gözəl oğlan, ver yaylığı.

O ğ l a n: Yaylığını tanı, ay qız,
Məndə yaylıq hanı, ay qız.
Kim dedi yaylıq məndədir,
Bəlkə qalıb çəməndədir, ay gözəl,
Gəl axtaraq yaylığını.

Q ı z: Ay kələkbaz oğlan, oğlan,
İnciyərəm səndən, inan.
Gəlməsə yaylıq qarşıma,
Xəbər verrəm qardaşıma, yar, yarcan,
Gözəl oğlan, ver yaylığı.

O ğ l a n: Qurban olum göz-qaşına,
Gedib demə qardaşına.
Sevgilimsən, gəl incimə,
Yaylıq məndədir, gözəl, yar, yarcan,
Ay sevgilim, al yaylığı.

# 81. LAÇIN

**Allegretto moderato**




Araz axar lil ilə,
Dəstə-dəstə gül ilə.
Mən yarımı sevirəm
Şirin-şirin dil ilə.

N ə q ə r a t

Bağçaları sarı gül,
Yarı qönçə, yarı gül,
Gec açıldın, tez soldun,
Olmayaydın barı, gül.

N ə q ə r a t

Alma versəm almazsan,
Sən almadan qalmazsan,
Hansı bağın gülüsən,
Saralmazsan, solmazsan.

N ə q ə r a t:

Ay Laçın, can Laçın,
Mən sənə qurban, Laçın.

# 82. NİYƏ BALAM




Qonşumuzda bir qız vardır,
Yanağında xalı vardır.
Anasından gizli mənə
Söz verib aldatdı məni,
Məni, məni, məni, niyə balam.

N ə q ə r a t

Yaylığımı aldım ondan,
Ayrılığı saldım ondan,
Dedim gələr, qaytararam,
Gəlmədi, aldatdı məni,
Məni, məni, məni, niyə balam.

N ə q ə r a t

Sevgilimi görən olsa,
Deyin gəlsin vaxtı olsa.
Gözəl gəldi, nədən yoxsa,
Gəlmədi, aldatdı məni,
Məni, məni, məni, niyə balam.

N ə q ə r a t:

Yar yaman aldatdı məni,
Məni, məni, balam.
Aldadıb oynatdı məni,
Məni, niyə balam.

# 83. LEYLA




Getsən bağdan əgər,
Güllər boynun əyər.
Bülbül qan-yaş tökər,
Ağzın şirin, şəkər.

N ə q ə r a t

Dedim adın ceyran,
Ceyran sənə heyran,
Ətri səndən alar,
Bağçadakı reyhan.

N ə q ə r a t

Qaşın, gözün qara,
Çəkmə məni dara,
Əynində al xara,
Canım qurban yara.

N ə q ə r a t:

Allı-güllü, Leyla,
Şirindilli, Leyla,
Ay qız, Leyla, hey!

# 84. QOY GÜLÜM GƏLSİN



Mən aşiqəm zirəsən,
Zəfəransan, zirəsən,
O günə qurban olum,
Sən qapıdan girəsən.

N ə q ə r a t:

Qoy gülüm gəlsin, ay nənə!
Qoy yarım gəlsin, ay nənə!
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə, hey!

Qarabağın düzü var,
Düzlərində quzu var,
İki könül bir olsa,
Kimin ona sözü var.

N ə q ə r a t:

Qoy gülüm gəlsin, ay nənə!
Qoy yarım gəlsin, ay nənə!
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə, hey!

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm,
Dindirməyin, ağlaram,
Bir şirin dilə bəndəm.

N ə q ə r a t:

Qoy gülüm gəlsin, ay nənə!
Qoy yarım gəlsin, ay nənə!
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə, hey!

# 85. BİR DƏNƏSƏN




O ğ l a n Ay qız, aç bir üzünü,
Nay, nay, nay, nanay,
Görüm o qaş-gözünü,
Nay, nay, nay, nanay.
Mən ki səni sevirəm, ay,
Nay, nay, nay, nanay,
Mənə göstər üzünü, ay,
Nay, nay, nay, nanay.

Q ı z Get, get, küsmüşəm səndən,
Nay, nay, nay, nanay.

O ğ l a n Gəl, gəl, qaçma sən məndən,
Nay, nay, nay, nanay.

Q ı z Barışmaq istəyirsən ay,
Nana, nay, nay, nay, nay,
Mənə gül dər çəməndən, ay,
Nana, nay, nay, nay, nay.

O ğ l a n Ay qız, gülü neylərsən?
Nay, nay, nay, nanay.
Özün güldən gözəlsən,
Nay, nay, nay, nanay.

Q ı z Hey deyirsən sevirəm, ay,
Nana, nay, nay, nay, nay,
Nişanlamırsan məni, ay,
Nana, nay, nay, nay, nay.

O ğ l a n Anamdan bir yadigar
Nay, nay, nay, nanay.
Barmağımda üzük var.
Nay, nay, nay, nanay.
Gəl onu verim sənə, ay,
Nana, nay, nay, nay, nay,
Olginən mənə nigar, ay,
Nana, nay, nay, nay, nay.

# 86. ÇAL, OYNA




Dost bağında açılıb güllər,
Sarılıb gülə sarı bülbüllər.
Qızlar düzüb telinə güllər,
Gülürlər nazlana-nazlana.

Dost bağında bitər alçalar,
Ay çiçəklənər, yetər alçalar.
Toylarda qayda belədir,
Oğlan oynar, qızlar əl çalar.

N ə q ə r a t:

Mehribanım, mehriban,
Dur oyna, çal oyna.
Yaxşı oğlan, qəşəng qız, çal oyna.
Gözəl oğlan, gözəl qız, çal oyna.

# 87. HƏŞTƏRXAN




Həştərxandan gələn gəmi bənd olur,
Ay qayıdıb gələndə yükü qənd olur,
Qaydadır ki, oğlan qıza bənd olur.

N ə q ə r a t:

Ay gedərəm əlindən, ay qız, Səlyana,
Ay şikayət elərəm səndən hər yana.

Mindim gəmisinə getdim Səlyana,
Ay çıxdım qalasına, baxdım hər yana,
Səlyanın qızları dönüb ceyrana.

N ə q ə r a t:

Ay gedərəm əlindən, ay qız, Səlyana,
Ay şikayət elərəm səndən hər yana.

# 88. YAR GƏLİR

**Alla marcia**




Həştərxandan gəmi dolu nar gəlir,
Yar yanına ürək sevən yar gəlir,
Bala, yar gəlir.
Bala, yar gəlir,
Gülüm, yar gəlir.

Mənim yarım gözəllərin gözəli,
Gümüş kəmər incə belə dar gəlir,
Bala, yar gəlir.
Bala, yar gəlir,
Gülüm, yar gəlir.

# 89. AŞİQƏM

**Moderato**



Girdim yarın bağçasına,
Gül dibində gül bitər.
Asta yeri, xırdaca yarım,
Aşiqəm, əqlim gedər.

# 90. ŞEŞGÜLAN BİZİM OLSUN




Şeşgülan bizim olsun,
Kərpici qızıl olsun.
Yarım bizə gələndə,
Gecələr uzun olsun.

Təbriz üstü Marağa,
Telin gəlməz darağa.
Mən yarımı itirdim,
Düşdüm soraq-sorağa.

N ə q ə r a t:

Yarımın gözünə qurban,
Şirin sözünə qurban,
Mən onun özünə qurban.

# 91. ÜÇ GÜNDƏN BİR




Könlüm istər görüm yarı,
Üç gündən bir, beş gündən bir.
Arzularam vəfadarı,
Üç gündən bir, beş gündən bir.

Göy dəryalar dərin olar,
Bulaq suyu sərin olar,
Yar busəsi şirin olar,
Üç gündən bir, beş gündən bir.

N ə q ə r a t:

Gəl-gəl ay, gəl-gəl ay, gəl gözəl yarım,
Səndədir, səndədir hər ixtiyarım.
Kəssələr, assalar aşiqi dardan,
Dönmərəm, dönmərəm sən kimi yardan.

# 92. PƏRİCAN




Tut ağacı boyunca,
Tut yemədim doyunca,
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

N ə q ə r a t

Mən aşiq nəynən alım,
Nəyim var, nəynən alım.
Küsdürüb yola saldım,
Könlünü nəynən alım.

N ə q ə r a t

Armud ağacı suda,
Yar gedib mən tək burda.
Olaydım yar yanında,
Xumar gözlər yuxuda.

N ə q ə r a t:

Pəri, Pərican, ay Pəri,
Gözləri mərcan, ay Pəri,
Mən sənə qurban, ay Pəri.

# 93. CEYRAN BALA



Bir yaylığım vardır gülü özündən,
Ay dəli balam, ay dəli.
Dolanım başına, öpüm üzündən,
Ay dəli balam, ay dəli.
Mən nə dedim, küsdün mənim sözümdən.

N ə q ə r a t:

Ölürəm, ay ceyran, ay ceyran, balam,
Yanıram, ay ceyran, balam ey,
Balam ey, balam ey, balam.

Asta yeri kəmər düşər belindən,
Ay dəli balam, ay dəli.
Nə eşitdin mən yazığın dilindən,
Ay dəli balam, ay dəli.
Ayrı düşdüm sevgilimdən, gülümdən.

N ə q ə r a t:

Ölürəm, ay ceyran, ay ceyran, balam,
Yanıram, ay ceyran, balam ey,
Balam ey, balam ey, balam.

# 94. SƏNİ YANASAN, TOYUQ TUTAN




Toyuğum mənim dümağ idi,
Kefi həmişə çağ idi,
Dünən bu vaxtı sapsağ idi.

N ə q ə r a t:

Səni yanasan toyuq tutan.
Odlanasan toyuq tutan.

Toyuğum mənim çil-çil idi,
Qanadları mil-mil idi,
Toyuq deyil, lap bülbül idi.

N ə q ə r a t:

Səni yanasan toyuq tutan.
Odlanasan toyuq tutan.

# 95. YERİ-YERİ, QURBANIN OLUM




Yeri-yeri, qurbanın olum,
Aşiqin, heyranın olum.
Gözəllikdə bir dənəsən.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Ay bircə gözəl su sonası,
Başında var ağ cunası,
Ağ dişlərin dürdanəsi.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Xalları da var qoşa-qoşa,
Hər birisi bir tamaşa,
Mən vurğunam qələm qaşa.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

# 96. SARI BÜLBÜL




Vətən bağı al-əlvandır,
Yol üstündə sarı bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin barı, bülbül.

Geyib yaşıl donun çöllər,
Həvəsinlə açır güllər.
Töküb şirin-şirin dillər
Gəl oyadaq yarı, bülbül.

Oxu, quşlar dilə gəlsin,
Xoş nəfəsin zilə gəlsin.
Yarım gülə-gülə gəlsin,
Mən çalanda tarı, bülbül.

# 97. GƏL-GƏL

**Moderato**




Yük üstə güllü xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olum,
Dindirə, könlüm aça.

N ə q ə r a t:

Gəl-gəl, ay yanaqları gül,
Gəl-gəl, ay saçları sünbül.

# 98. O SÜRMƏLİ GÖZLƏRİN

**Allegretto**






O sürməli gözlərin,
Sənin ən gözəl yerin,
Təbiətin əlilə
Çəkildi sürmələrin.

Əlinə ayinə al,
Gör nə məlahətlisən?
Qədir bilən yanında
Dünyadan qiymətlisən.

Başında var şal bunun,
Üzündə var xal bunun,
Bir dəli şeytan deyir,
Dur qadasın al bunun.

# 99. AHU KİMİ




Ahu kimi gözlərin,
Şirin-şirin sözlərin.
Sən mənimsən, mən sənin,
Nəyə lazım sözlərin.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

Sənsən mənim öz gülüm,
Çəməndəki bülbülüm,
Mən səndən əl üzmərəm,
Sənsən mənim sevgilim.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

Ay qız, dur gəl yanıma,
Qadan-balan canıma.
Mən səndən əl üzmərəm,
And olsun vicdanıma.

N ə q ə r a t:

Canım, gözüm, ay sözüm,
Sənsiz mən necə dözüm.

# 100. AY QARA QIZ



Ay qara qız, getmə, sənə sözüm var,
Aləm bilir gözlərində gözüm var.
Ayaq saxla, sənə gizlin sözüm var,
Ay nənəm, sözüm var.

N ə q ə r a t:

Aman, aman, mən ölürəm,
Səni, yar, mən sevirəm.
Alırsan, gəl, al canım,
Almırsan, mən ölürəm.
Səni, yar, mən sevirəm.

Qara qız çıxıbdır dağın başına,
Xonçalar yığılıb qızın başına.
Mən qurbanam qara qızın qaşına,
Ay nənəm, qaşına.

N ə q ə r a t:

Aman, aman, mən ölürəm,
Səni, yar, mən sevirəm.
Alırsan, gəl, al canım,
Almırsan, mən ölürəm.
Səni, yar, mən sevirəm.

# 101. SEVGİLİM




Üzündə qaradır xalın, ay qaradır, qaradır xalın.
Əlində güllü dəsmalın, ay güllüdür güllü dəsmalın.
Can almaq istər xəyalın, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.

Bülbüləm boş dolanmaram, ay dolanmaram, dolanmaram,
Cəh-cəhimdən dayanmaram, ay dayanmaram, dayanmaram.
Hər bir gülə inanmaram, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.

Gül sənin tək deyil göyçək, ay deyil göyçək, deyil göyçək.
Eşitmişəm yalan-gerçək, ay eşitmişəm, yalan-gerçək.
Ara rəqiblər deyəcək, ay tez eylə, tez eylə, tez eylə.
Yolunda candan keçərəm, sevgilim,
Ay eşqimizə and içərəm, sevgilim.

# 102. PAROXOD




Paroxod gələndə salır hayhayı,
Balaca muzdurlar daşıyır tayı,
Bu dünyada yoxdur yarımın tayı.

N ə q ə r a t:

Oyan, oyan, o gözlərin qurbanı,
Allam, allam səni, yar,
Bala-bala yar, yar.
Qoynuma sallam səni, yar,
Bala-bala yar, yar.
Can sənə qurban, sənə yar,
Bala-bala yar, yar.
Özüm sənə qurban, sənə yar,
Bala-bala yar, yar.

# 103. QARA QAŞIN VƏSMƏSİ




Qara qaşın vəsməsi,
Yandırıb yaxdı məni,
Gün kimi çaxdı məni.
Görüm səni yanasan, yanasan,
Aman, çəkmə sürməni,
Qaşa çəkmə vəsməni.

Qara gözün sürməsi,
Yandırıb yaxdı məni,
Gün kimi çaxdı məni.
Görüm səni yanasan, yanasan,
Aman, çəkmə sürməni,
Qaşa çəkmə vəsməni.

# 104. GİRDİM YARIN BAĞÇASINA



Girdim yarın bağçasına, çiçəklər açmış,
O yar mənim ürəyimə yaralar saçmış.

N ə q ə r a t

Girdim yarın dəryasına, gəmim dolmadı,
Gənc yaşımda bir yar sevdim, mənim  olmadı.

N ə q ə r a t:

Gəl, gəl, gəl, gözəlim gəl, gəl görüm səni,
Əgər qismətim olarsa, alaram səni.

## 105. ƏZİZİM, KEÇMƏ MƏNDƏN

**Allegretto**




Əzizim, keçmə məndən,
Çay məndə, çeşmə məndə.
İnanma yad sözünə,
Cavanam, keçmə məndən.

Pəncərənin milləri,
Açıb qızılgülləri.
Oğlanı yoldan eylər,
Qızın şirin dilləri.

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən sənə göz dikmişəm,
Neylirəm özgəsini.

# 106. ŞUŞANIN DAĞLARI



Şuşanın dağları deyil dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı.

N ə q ə r a t:

Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölürəm dərdindən onu bil,
Danışmasan da barı, gül.

Şuşada axşamlar doğar ulduzlar.
Onlardan gözəldir gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.

N ə q ə r a t:

Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölürəm dərdindən onu bil,
Danışmasan da barı, gül.

Şuşanın hər yandan gəlir sorağı,
Tərifə layiqdir İsa bulağı,
Bağları, dağları, qızlar oylağı.

N ə q ə r a t:

Ay qız, bu nə qaş-göz, bu nə tel,
Ölürəm dərdindən onu bil,
Danışmasan da barı, gül.

# 107. AMAN OVÇU




Aman ovçu, vurma məni,
Mən bu yerin, a balam, maralıyam.
Maralıyam, maralıyam,
Mən bu yerin, a gülüm, maralıyam, bala,
Yar əlindən, a mama, yaralıyam.

Bu dağlarda maral gəzər,
Əl-ayağın, a balam, daşlar əzər.
Mən yarıma neyləmişəm
Yarım məndən, a mama, kənar gəzər,
Yarım məndən, a mama, kənar gəzər.

# 108. UCA BARIDAN AŞARAM




Uca barıdan aşaram mən,
Yarıma kəniz qoşaram mən.
O qızı mənə versələr,
İkicə yüz il yaşaram mən.

Aşiq olmuşam üzünə,
Qurbanam o qaş-gözünə,
Səndən özgə yox sevgilim,
Baxma özgənin sözünə.

N ə q ə r a t:

Ay uca dağlar,
Səndə nələr var,
Qıyqacı baxmağın aldı canımı,
Rəhm eylə, ay mələk, tökmə qanımı.

# 109. ÜÇ TELLİ DURNA



Evlərinin dalı qaya,
Qayadan baxarlar Aya,
Mənim yarım ağca maya.

Evlərinin dalı təpə,
Yağış gələr səpə-səpə,
Oyadaram öpə-öpə.

N ə q ə r a t:

Üç telli, dörd telli, beş telli durna,
Sən haralısan, haralı durna,
Ovçu əlindən yaralı durna.
Uca dağların maralı durna.
Ovçu əlindən yaralı durna.

# 110. MƏNZƏRƏM

**Allegretto moderato**




Qərənfil abı gərək,
Yar yarın babı gərək,
Zərrəcə eşq olanın,
Dərya qədər tabı gərək.

Mən aşıq, gözdə qara,
Qaş qara, köz də qara,
Yarımı gözləməkdən,
Qalmadı gözdə qara.

Mənzərəm mən, Mənzərəm,
Qönçə gülə çox bənzərəm,
Üç oğul, üç qızımın,
Tellərinə gül düzərəm.

# 111. QARA XAL YAR




Araxçının məndədi, qara xal yar,
Sərmişəm çəməndədi, qara xal yar,
Aləm gözələ dönsə, qara xal yar,
Mənim gözüm səndədi, qara xal yar.

Araxçının dardarı, qara xal yar,
Gəl başımın sərdarı, qara xal yar,
Evimizə gəlmədin, qara xal yar,
Qonşumuza gəl barı, qara xal yar.

Araxçının haşımı, qara xal yar,
Hara qoyum başımı, qara xal yar,
Mən ki səni sevirəm, qara xal yar,
Tökmə gözün yaşını, qara xal yar.

# 112. GEDƏK GƏZƏK BAĞÇADA




Gedək gəzək bağçada,
Ay aman, ay aman, ay aman, aman.
Düşsün gözəllər yada,
Ay aman, ay aman, ay aman, aman.

N ə q ə r a t

Bağa girdim nar üçün,
Ay aman, ay aman, ay aman, aman.
Narı dərdim yar üçün,
Ay aman, ay aman, ay aman, aman.

N ə q ə r a t

Bu dağların üzündən,
Ay aman, ay aman, ay aman, aman.
Ceyran otlar düzündə,
Ay aman, ay aman, ay aman, aman.

N ə q ə r a t:

Ah aman, yar əlindən,
Əlaman, yar əlindən.

# 113. SANDIĞA GİRSƏM NEYLƏRSƏN



O ğ l a n: Sən bir gözəl ceyran olsan,
Düzlərə qaçacaq olsan,
Mən bir mahir ovçu olub,
Səni ovlasam, neylərsən?

Q ı z: Sən bir mahir ovçu olsan,
Məni ovlayacaq olsan,
Mən bir qızıl alma olub,
Sandığa girsəm, neylərsən?

O ğ l a n: Sən bir qızıl alma olsan,
Sandığa girəcək olsan,
Mən bir paslı açar olub,
Sandığı açsam, neylərsən?

Q ı z: Sən bir paslı açar olsan,
Sandığı açacaq olsan,
Mən bəzəkli gəlin olub,
Sandıqdan çıxsam, neylərsən?

O ğ l a n: Sən bəzəkli gəlin olsan,
Sandıqdan çıxacaq olsan,
Mən bir qəşəng oğlan olub,
Qoynuna girsəm, neylərsən?

# 114. NEYLƏRSƏN




Qaşın qara, gözün qara,
Sürməni neylərsən,
Ürəyimə vurma yara,
Sürməni neylərsən,
Vəsməni neylərsən.
Sənin ki yarın var imiş,
Bəs məni neylərsən,
Bəs məni neylərsən.
Qaşın, gözün zil qaradır,
Aşiqinəm, canın alır.
Qaşın qara, gözün qara,
Sürməni neylərsən,
Vəsməni neylərsən.

# 115. BÜLBÜLÜN GEYDİYİ SARI




Bülbülün geydiyi sarı,
Mən ağlaram zarı-zarı.
İtirmişəm nazlı yarı,
Sən ağlama, mən ağlaram.

Bülbülün geydiyi atlaz,
Atlaza iynələr batmaz.
Mənim yarım mənsiz yatmaz,
Sən ağlama, mən ağlaram.

# 116. QARA TELLƏR



Qara tellər, qara tellər,
Qapqaradır, qara tellər,
Darananda qara tellər,
Yar könlünü qarət eylər.

N ə q ə r a t:

Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

Qara tellər, qara tellər,
Qapqaradır, qara tellər,
Şəvə kimi qara tellər,
Qara tellər, qara tellər.

N ə q ə r a t:

Qara tellər, qara tellər,
Qara tellər, qara tellər.

Qara gözlər, qara gözlər,
Şəvə kimi qara gözlər.
Cilvələnib şux baxanda
Qara gözlər, kimi gözlər.

N ə q ə r a t:

Qara tellər, qara tellər,
Qara gözlər, kimi gözlər.

Mən aşiqəm, ağ barama,
Qıvrım teli çox darama,
Mənim ki gözüm səndədi,
Özgəsini gəl arama.

N ə q ə r a t:

Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

# 117. BU GƏLƏN YARA BƏNZƏR




Bu gələn yara bənzər,  
Telləri qara bənzər.  
Ay qız, ay qız, bir bəri bax…  
Qoşa xal var üzündə.  
Sallana-sallana telləri var,  
Xırdaca-xırdaca əlləri var.  
At məni, bala, tut məni,  
Qolların arasında.  
Mən yazığam, mən fəqirəm,  
Mən yazığam, öyrət məni,  
Ay gözəl, az incit məni.

# 118. DİLBƏRİM

Moderato




Dağlarda quzu gəzər,
Əl-ayağın daş əzər.
Mən yara neyləmişəm,
Yar məndən kənar gəzər.

N ə q ə r a t

Bağa girmərəm sənsiz,
Gülü dərmərəm sənsiz.
Bağda quzu mələsə,
Bil ki, o mənəm sənsiz.

N ə q ə r a t

Bu dağda bir maral var,
Başında tirmə şal var.
Adı çıxdı yadımdan,
Üzündə qara xal var.

N ə q ə r a t:

Dilbərim, dilbərim,
Gəl, gəl, ahu balası,
Gözəl, xəlvətdir bağ arası.

# 119. QUBANIN AĞ ALMASI




Qubanın ağ alması,
Yeməyə bağ alması,
Yarım gələnə qalıb,
Yaramın sağalması.

N ə q ə r a t

Qubadan alma aldım,
Yarıma yola saldım.
Yarım gələnə kimi,
Heyva kimi saraldım.

N ə q ə r a t

Quba məndən aralı,
Könlüm səndən yaralı.
Mən ki səni sevmişəm
Azərbaycan maralı!

N ə q ə r a t:

Sevirəm, sevirəm yar!
Sevirəm yar!
Yalqızam, yar can!
Aman, aman, sevirəm yar
Sevirəm yar!
Yalqızam, yar can!

# 120. ŞUŞA CEYRANI






Uca dağ başından enib gəlirsən,
Dağlar maralısan, Şuşa ceyranı,
Niyə yaralısan Şuşa ceyranı.
Aşiqinin qəlbin niyə əzirsən,
Dağlar maralısan, Şuşa ceyranı,
Niyə yaralısan, Şuşa ceyranı.

N ə q ə r a t:

Ayrılmaram səndən, doymaram dilindən,
Çünki canım evi sənin əlindədi.
Dağlar maralısan, Şuşa ceyranı,
Niyə yaralısan, Şuşa ceyranı.

Eşitdim sorağın sənin uzaqdan,
Gəlirsən bizlərə, Şuşa ceyranı.
Kim inciyər səntək əziz qonaqdan,
Qurbanam gözlərə, Şuşa ceyranı.
Dağlar maralısan, Şuşa ceyranı,
Niyə yaralısan, Şuşa ceyranı.

N ə q ə r a t:

Ayrılmaram səndən, doymaram dilindən,
Çünki canım evi sənin əlindədi.
Dağlar maralısan, Şuşa ceyranı,
Niyə yaralısan, Şuşa ceyranı.

# 121. UCA DAĞLAR BAŞINDA




Uca dağlar başında səslərəm səni,
İki gözümün üstündə bəslərəm səni.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.

Uca dağlar başında ceyran yol eylər,
Sənin kimi yarı olan özgə yarı neylər.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.

Uca dağlar başında bir sürü qoyun,
Xınalı əllərimi qoynuna qoyum.
Ay gülə-gülə, yar gülə-gülə,
Mən aşiq oldum bir şirin dilə.

# 122. SƏNİ ÇOXDAN SEVİRƏM




Bağlamışam din-imanı zülfünə,
Mənim kimi heyran hanı zülfünə.

Sənsən mənim ayım, günüm, hilalım,
Dövlətim, iqbalım, cahi-cəlalım.

N ə q ə r a t:

Çəkərəm nazını yarın,
Nə qədər naz eləyərsə,
Qurban ollam nazına,
Sazına, avazına,
Səni çoxdan sevirəm.

# 123. NAXÇIVAN




Mən səni vəsf edim bir canan kimi,
Sarılım boynuna mehriban kimi,
Göyündə ulduzlar sayrışan kimi.

N ə q ə r a t:

Ey könül mülkünün varı, Naxçıvan,
Ellərin sevimli yarı, Naxçıvan.

Qoynuna gülüzlü şux nigar gəlir,
Müjdə ver bülbülə ilk bahar gəlir,
Qızlar bulağına nazlı yar gəlir.

N ə q ə r a t:

Ey könül mülkünün varı, Naxçıvan,
Ellərin sevimli yarı, Naxçıvan.

# 124. ANACAN


Allegretto
1. A–na–can, bağ – rı – mı qan ey – lə – mi – şəm mən,
Göz–lə – ri – mi gir – yan ey – lə – mi – şəm mən.
Bir a – la göz – lü ya – rın eş – qi yo – lun – da,
Nəqərat
Öz ca – nı – mı qur – ban ey – lə – mi – şəm mən. A – na–can,
ağ – rın a – lım, A – na – can, ba – şı – na dö – nüm,
Qoy do – la – nım mən, mən, mən, mən. Mə – nim öz
sev – gi – li – mə Hey – ran o – lum, mən, mən, mən, mən,

Anacan, bağrımı qan eyləmişəm mən,
Gözlərimi giryan eyləmişəm mən.
Bir ala gözlü yarın eşqi yolunda,
Öz canımı qurban eyləmişəm mən.

N ə q ə r a t:

Anacan, ağrın alım,
Anacan, başına dönüm.
Qoy dolanım mən, mən, mən, mən,
Mənim öz sevgilimə
Heyran olum mən, mən, mən, mən.

Gülü xəndan kimidir yarın ləbləri,
Ceyrana bənzər onun ala gözləri.
İki kəlmə danışıb ayrıldı məndən,
Əqlimi şur elədi şirin sözləri.

N ə q ə r a t:

Anacan, ağrın alım,
Anacan, başına dönüm.
Qoy dolanım mən, mən, mən, mən,
Mənim öz sevgilimə
Heyran olum mən, mən, mən, mən.

Anacan, eşq oduna yanmamışam mən,
Hələ də bir təcrübə almamışam mən.
Nə yaman olur yardan ayrı düşəndə,
Bəlkə də yaxşı-yaman qanmamışam mən.

N ə q ə r a t:

Anacan, ağrın alım,
Anacan, başına dönüm.
Qoy dolanım mən, mən, mən, mən,
Mənim öz sevgilimə
Heyran olum mən, mən, mən, mən.

# 125. YAR GƏLDİ




Oduna mən yanmışam,
Başına çox dolanmışam,
Yolunda dayanmışam,
Yar gəldi, yar gəldi, yar gəldi.

Sözünə sözüm qurban,
Gözünə bu gözüm qurban,
Özünə özüm qurban,
Yar gəldi, yar gəldi, yar gəldi.

Getmə məndən uzağa,
Salma könlümü fərağa,
Sevdiyim ay el, oba,
Yar gəldi, yar gəldi, yar gəldi.

Qoymaram bir də gedə,
Yarını həsrətli edə,
Qoy deyim mən yenə də,
Yar gəldi, yar gəldi, yar gəldi.

# 126. NAR-NAR




Gül-çiçəyi dərərəm, nar-nar,
Əlvan çələng hörərəm, nar-nar,
Hər gün səni görəndə, nar-nar,
Öz bəxtimi görərəm, nar-nar.

Dağlara gün düşəydi, nar-nar,
Demə, neçin düşəydi, nar-nar,
Bizim evin yanından, nar-nar,
Yolun hər gün düşəydi, nar-nar.

Qanadlanıb uçaydım, nar-nar,
Qəmdən uzaq qaçaydım, nar-nar,
Ürəyimi bir axşam, nar-nar,
Sevdiyimə açaydım, nar-nar.

Dostu yaddan seçəydik, nar-nar,
Buz bulaqdan içəydik, nar-nar,
Barı bizim küçədən, nar-nar,
Bir gün qoşa keçəydik, nar-nar.

# 127. AY QIZ


Moderato
1. Bu – laq ba – şı toz o – lar, Bu – laq ba – şı toz
o – lar, Üs – tü do – lu qız o – lar. Sə – ni ya – na –
– san, ay qız. Mən sə – nə gül de – mə – rəm,
Mən sə – nə gül de – mə – rəm, Gü – lün öm – rü az
o – lar. Yan – dım, ya – na – san, ay qız.
Nəqərat
Məh – bu – bəm, mə – şu – qəm,
Sə – ni mən is – tər – dim,
Bi – və – fa bil – məz – dim.

Bulaq başı toz olar,
Üstü dolu qız olar.
Səni yanasan, ay qız,
Mən sənə gül deмərəm,
Gülün ömrü az olar,
Yandım, yanasan, ay qız.

N ə q ə r a t:

Məhbubəm, məşuqəm,
Səni mən istərdim,
Bivəfa bilməz idim.

Vətən bağı bizimdir,
Hər budağı üzümdür.
Səni yanasan, ay qız,
Sevib-sevmək ar deyil,
Bir oğlan bir qızındır,
Yandım yanasan, ay qız.

N ə q ə r a t:

Məhbubəm, məşuqəm,
Səni mən istərdim,
Bivəfa bilməz idim.

İstəkanın bir dəsti,
Dəsti də mənə bəsdi.
Səni yanasan, ay qız,
Yarım məndən küsübdür,
Qüssəsi mənə bəsdir,
Yandım, yanasan, ay qız.

N ə q ə r a t:

Məhbubəm, məşuqəm,
Səni mən istərdim,
Bivəfa bilməz idim.

# 128. ÇİT TUMAN



Dolan gəl beləsinə,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Sarvanlar məhləsinə,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Gündə qurban kəsərəm,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Gözlərin giləsinə.

N ə q ə r a t:

Sarı köynək, sarı çəpkən,
Badamı çit tuman.

Su gəlir qalxa-qalxa,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Tökülür bizim arxa,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Qonşuda qız sevmişəm,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Anamdan qorxa-qorxa.

N ə q ə r a t:

Sarı köynək, sarı çəpkən,
Badamı çit tuman.

Kərdidə kağ kağlaram,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Dibinə su bağlaram,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Yarın gəlir desələr,
Na-na-nay, na-na-nay,
Na-na-nay, na-na-nay.
Boynunu qucaqlaram.

N ə q ə r a t:

Sarı köynək, sarı çəpkən,
Badamı çit tuman.

# 129. MULEYLİ




Pəncərənin milləri, Muleyli,
Açıb qızılgülləri, Muleyli.
Oğlanı yoldan eylər, Muleyli,
Qızın şirin dilləri, Muleyli.

Qızılgülü biçərəm, Muleyli,
Üstündə and içərəm, Muleyli.
Gözəl qızlar içində, Muleyli,
Bircə qız yar seçərəm, Muleyli.

Qərənfiləm budama, Muleyli,
Buyur gedək o dama, Muleyli.
Əgər məni sevirsən, Muleyli,
Elçi göndər anama, Muleyli.

# 130. AY SALLANIB GEDƏN YAR




Ay sallanıb gedən yar,
Ayaq saxla, sözüm var.
Qoy bir baxım doyunca,
Gözlərində gözüm var.

Sənin kimi yar hanı,
Azərbaycan ceyranı.
Qara qaşın, gözlərin,
Mən aşiqin dərmanı.

N ə q ə r a t:

Yerişinə balam,
Gülüşünə balam,
Baxışına qurban.
Bağrımı qan eləmə, gəl,
Sevgili canan, gəl,
Ay incəbelli, gəl,
Ay qaratelli, gəl,
Ay şirindilli, gəl.

# 131. DƏLİ CEYRAN




Gözəlim, aşiqini salma nəzərdən,
Həsrətindən ölürəm, gəl bizə hərdən.
Sənə çoxdan vurulub bu dəli könlüm,
Neyləyim ki, xəbərin yoxdu xəbərdən.

N ə q ə r a t:

Gəl mənə naz eyləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

Bir dönüb baxmaq ilə canımı aldın,
Məni Məcnun eyləyib çöllərə saldın.
Mən sənə inanıb öz könlümü verdim,
Məni atıb gedib əğyar ilə qaldın.

N ə q ə r a t:

Gəl mənə naz eyləmə, ay dəli ceyran,
O qara gözlərinə olmuşam heyran.

# 132. SƏNDƏN MƏNƏ YAR OLMAZ

**Allegretto**




Səndən mənə yar olmaz,
Əhdə vəfadar olmaz,
Yüz min il bahar olsa,
Bülbülsüz güllər açmaz.

Küsdürmüsən al nazımı,
Qışa döndərmə yazımı,
Çalıb dindirmə sazımı,
Yaralıyam yar, yar.

# 133. AY QARAQAŞ, QARAGÖZ






Sevgili yarın qaşları
Alıb canımı neynim.
Aşiq olmuşam mən sənə,
Düşübdür sənə meylim.

N ə q ə r a t:

Ağ buxağda xalın görüb heyranın ollam,
Gəl məni qonaq elə, gözəl, mən sənin ollam.
Qoynunda var bir cüt bar,
Biri heyva, biri nar.
Gəl, gözüm üstə yerin var,
Ay qaraqaş, qaragöz.

Çün bahar olcaq oxuyur,
Bülbüllər çəmən içrə.
Könlüm açılır görcək,
Səni yasəmən içrə.

N ə q ə r a t:

Ağ buxağda xalın görüb heyranın ollam,
Gəl məni qonaq elə, gözəl, mən sənin ollam.
Qoynunda var bir cüt bar,
Biri heyva, biri nar.
Gəl, gözüm üstə yerin var,
Ay qaraqaş, qaragöz.

# 134. GÜL BAĞÇALAR




Gül bağcalar kənarında
Qoşa gəzir gözəllər.
Onlar tutmuş əllərində
Ətirli çiçəklər.

Özləri susmuş olsa da,
Ürəkləri danışır,
Eşqin mavi göylərində
Ulduzları barışır.

Gülür dostlar, gülür bahar,
Sevinir ürəkləri.
Onların xoş mahnıları
Oxşayır ürəkləri.

# 135. SARI GƏLİN




Saçın ucun hörməzlər,
Gülü qönçə dərməzlər,
Sarı gəlin.
Bu sevda nə sevdadır,
Səni mənə verməzlər,
Neynim, aman, aman,
Neynim, aman, aman,
Sarı gəlin.

Bu dərənin uzunu
Çoban qaytar quzunu,
quzunu.
Nə ola, bir gün görəm
Nazlı yarın üzünü,
Neynim, aman, aman,
Neynim, aman, aman,
Sarı gəlin.
Bu sevda nə sevdadır,
Ay nənən ölsün,
Sarı gəlin, aman,
Sarı gəlin, aman,
Sarı gəlin.

## MÜNDƏRİCAT

*Ön söz* ....................................................................4

1. Ninni ....................................................................7
2. Beşik başında ....................................................................8
3. Tütü nənəm....................................................................8
4. İş başına....................................................................9
5. Səhər-səhər yaz çağı ....................................................................10
6. Zəhmətin işığı....................................................................10
7. Şəfəq sökülürkən....................................................................11
8. Çıxdı günəş ....................................................................13
9. Çək, şumla yeri ....................................................................14
10. Biçinçiyəm....................................................................14
11. Qarabağ şikəstəsi....................................................................15
12. El yallı ....................................................................17
13. Ay ləli....................................................................19
14. Qara qız ....................................................................20
15. Əlində sazın qurbanı ....................................................................21
16. Ayın aydınlığı....................................................................22
17. Bağçadan gələn səs....................................................................22
18. Qalalıyam....................................................................23
19. Bağın bağımca varmı ....................................................................24
20. Dağlarda çiçək....................................................................25
21. Saçın ucun hörməzlər ....................................................................26
22. Azərbaycan maralı....................................................................27
23. Gül oğlan ....................................................................29
24. Yar bizə qonaq gələcək ....................................................................31
25. Qara gilə ....................................................................32
26. Gözəlim sənsən....................................................................34
27. Gül açdı ....................................................................35
28. Küçələrə su səpmişəm ....................................................................36
29. Nə gözəldir ....................................................................36
30. Ay dilbər....................................................................38
31. Yeri, dam üstə yeri ....................................................................39
32. Nazlı yar ....................................................................40
33. Aç xurcunu....................................................................41
34. Yadıma sən düşəndə....................................................................42
35. Gəl, gəl, sevirəm səni ....................................................................42
36. Dedim bir busə ver ....................................................................43
37. Çalpapaq ....................................................................44
38. Gözəl ....................................................................46
39. Bağçada gül....................................................................47
40. Yaxan düymələ ....................................................................48
41. Bazarda alma....................................................................50
42. Getdi yar ....................................................................51
43. Ceyran sevgilim....................................................................52
44. Bəri bax ....................................................................54
45. Ay qız, sənə mayiləm ....................................................................55
46. Dağıstan....................................................................56
47. Ay qadası ....................................................................57
48. Sənsən gözəlim ....................................................................58
49. Ay qız, heyranın ollam....................................................................59
50. Gülə-gülə ....................................................................60

51. Aman nənə ........ 62
52. Ağacda leylək ........ 64
53. Gəlmə, gəlmə ........ 64
54. Yeri ha, yeri ha ........ 65
55. Kəklik ........ 67
56. Bir cüt sona ........ 68
57. Onu demə zalım yar ........ 70
58. Mərənddən aşdım ........ 71
59. Araxçının məndədir ........ 71
60. Ay bülbüllər ........ 72
61. Evləri var xana-xana ........ 73
62. Get, ay batandan sonra gəl ........ 74
63. Xumar oldum ........ 76
64. Göydə ulduz əllidir ........ 78
65. Qadan alım ........ 79
66. Nə halətdir ........ 80
67. Cəlal xalıq ........ 82
68. Bir alagöz ........ 83
69. Sona bülbüllər ........ 84
70. Almanı atdım xarala ........ 86
71. Alma ........ 88
72. Bağa girdim üzümə ........ 89
73. Süsən sünbül ........ 90
74. Bəh-bəh ........ 92
75. Sona xanım ........ 93
76. Ay dili-dili ........ 94
77. Minəydim atın kəhərini ........ 95
78. Ay gözəl ........ 96
79. Sürməli qız ........ 97
80. Yaylıq ........ 98
81. Laçın ........ 99
82. Niyə balam ........ 100
83. Leyla ........ 101
84. Qoy gülüm gəlsin ........ 102
85. Bir dənəsən ........ 104
86. Çal, oyna ........ 105
87. Həştərxan ........ 106
88. Yar gəlir ........ 107
89. Aşiqəm ........ 107
90. Şeşgülan bizim olsun ........ 108
91. Üç gündən bir ........ 109
92. Pərican ........ 110
93. Ceyran bala ........ 111
94. Səni yanasan, toyuq tutan ........ 113
95. Yeri-yeri, qurbanın olum ........ 114
96. Sarı bülbül ........ 115
97. Gəl-gəl ........ 116
98. O sürməli gözlərin ........ 116
99. Ahu kimi ........ 118
100. Ay qara qız ........ 119
101. Sevgilim ........ 121
102. Paroxod ........ 122
103. Qara qaşın vəsməsi ........ 123
104. Girdim yarın bağçasına ........ 124
105. Əzizim, keçmə məndən ........ 125

106. Şuşanın dağları....................126
107. Aman ovçu....................128
108. Uca barıdan aşaram....................129
109. Üç telli durna....................130
110. Mənzərəm....................131
111. Qara xal yar....................132
112. Gedək gəzək bağçada....................133
113. Sandığa girsəm neylərsən....................134
114. Neylərsən....................136
115. Bülbülün geydiyi sarı....................137
116. Qara tellər....................138
117. Bu gələn yara bənzər....................140
118. Dilbərim....................141
119. Qubanın ağ alması....................142
120. Şuşa ceyranı....................143
121. Uca dağlar başında....................145
122. Səni çoxdan sevirəm....................146
123. Naxçıvan....................147
124. Anacan....................148
125. Yar gəldi....................150
126. Nar-nar....................151
127. Ay qız....................152
128. Çit tuman....................154
129. Muleyli....................156
130. Ay sallanıb gedən yar....................157
131. Dəli ceyran....................158
132. Səndən mənə yar olmaz....................159
133. Ay qaraqaş, qaragöz....................160
134. Gül bağçalar....................162
135. Sarı gəlin....................163

**AZƏRBAYCAN XALQ MAHNILARI**

**I CİLD**

“ÖNDƏR NƏŞRİYYAT”

BAKI–2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Rəssam: | *Mir-Teymur* |
| Notoqrafika: | *Xanlar Novruzov* |
| Kompyuter dizaynı: | *Emin İbrahimov*<br>*Rəvan Mürsəlov* |
| Korrektorlar: | *Nərmin Qaralova*<br>*Həbibə Məmmədova*<br>*Pərinaz Səmədova* |

Yığılmağa verilmişdir 21.09.2004. Çapa imzalanmışdır 09.03.2005.
Formatı 60x84 $^1/_8$. Fiziki çap vərəqi 21. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 44.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.